№ 244 ISSN 1027-3875 01 fevral 2008

KHAZAR VIEW

# XƏZƏR XƏBƏR




ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Knyaz ASLAN

Məsul katib:
Cabir MƏMMƏDLİ

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Zakir N. Yusifoğlu
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

*Ünvanımız:*
*Bakı, Məhsəti küçəsi 11,*
*("Neftçilər" metrosunun yanı)*
*Faks: 498-93-79*
*Telefon: 421-79-16*
*421-10-93*

*Şəhadətnamə: 255*
*İndeks: 67178*
*Sifariş: 189*
*Tiraj: 3000*

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Knyaz ASLAN

Editorial assistant:
Jabir MAMMADLI

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Zakir N. Yusifoglu
Photoreporter:
Kheyrulla HACALIYEV

*Address:*
*11 Mahsati str., Baku,*
*(near the "Neftchilar" metro)*
*Fax: 498-93-79*
*Phone: 421-79-16*
*421-10-93*

*Certificate: 255*
*Index: 67178*
*Order: 189*
*Copies: 3000*

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press


# OXUYUN

## Bu nömrədə



Rayonlarımız işğaldan azad olunacaq 4

Təbrizdə erməni konsulu? 7





*Müsahibimiz Şahin Mustafayevdir* 12

**Nobel mükafatı** 16



UŞAQ DÜNYASI 36

## Rayonlarımız işğaldan azad olunacaq

***Ermənistanın qeyri-konstruktiv mövqeyi və dünya ictimaiyyətinin məsələyə biganə yanaşması Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllini hələlik mümkünsüz edib.***



Bunu Azərbaycan prezidenti İlham Əliyev hökumətin 2007-ci ilin yekunlarına həsr olunmuş müşavirəsində söyləyib. Prezident bildirib ki, bütün dünya Azərbaycanın mövqeyinin haqlı olduğunu etiraf edir, ikitərəfli və beynəlxalq görüşlərdə, rəsmi sənədlərdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir, tanınır və müdafiə olunur. Amma bu dəstək real nəticələrə çevrilmir.

Ölkə başçısı 2008-ci ilin Dağlıq Qarabağ münaqişəsi üçün həlledici il olacağını söyləyib: "Bu il açıq görəcəyik ki, biz haradayıq, məsələnin həlli sülh yolu ilə mümkündür, yoxsa yox. Ondan sonra öz qərarlarımızı verəcəyik". Prezident bir daha bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü heç vaxt müzakirə etməyib və etməyəcək, indi və ya gələcəkdə Dağlıq Qarabağın müstəqilliyi müzakirə predmeti deyil və olmayıb.

Ölkə başçısı bəzən Ermənistan rəhbərliyi tərəfindən daxili auditoriyaya hesablanmış qeyri-ciddi və yalan məlumatlar verildiyini də xatırladıb. O bildirib ki, danışıqların mahiyyəti Azərbaycanın bütün işğal olunmuş torpaqlarının boşaldılması, o cümlədən Dağlıq Qarabağa Azərbaycan vətəndaşlarının qayıtmasıdır: "Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın rayonları boşaldılmalıdır. Mən bütün rayonların adlarını xüsusilə sadaladım ki, sabah Ermənistanda öz siyasi məqsədləri üçün hesablanmış yanlış bəyanatlar verməsinlər. Bütün bu rayonlardan erməni işğalçı qüvvələrinin çıxarılması, o cümlədən Dağlıq Qarabağa, Şuşaya azərbaycanlı köçkünlərin qayıtması danışıqların əsas mahiyyətidir. Bu, reallıqdır".

Ermənistanın bütün başqa millətləri qovub qapalı hərbiləşdirilmiş, antidemokratik rejim şəraitində yaşayan monodövlət olduğunu söyləyən prezident Dağlıq Qarabağda kriminal quldur dəstəsinin bölgəni zəbt etdiyini, orada hərbi kriminal rejimin hökm sürdüyünü deyib: "Ora heç bir beynəlxalq monitorinqə məruz qalmayan bölgədir və heç kim orada nələr baş verdiyini, hansı silahlar, terrorçu qüvvələr saxlanıldığını, necə narkotiklər yetişdirildiyini bilmir. Bu, Avropanın içində bir qara ləkədir".

Hazırda Ermənistanın bütün regional layihələrdən təcrid edildiyini deyən prezident bunun Azərbaycan torpaqları işğaldan azad olunana qədər davam edəcəyini bildirib.

## Ümumi daxili məhsulun istehsalı



Ötən il Azərbaycanda ümumi daxili məhsulun istehsalı 2006-cı illə müqayisədə 24,7% artaraq 24,6 mlrd. manat təşkil edib.

Bu barədə maliyyə naziri Samir Şərifov məlumat verib: «Ötən il ölkənin qeyri-neft sektorunda 11%-lik artım müşahidə olunub. 2007-ci il də daxil olmaqla son dörd ildə ölkə iqtisadiyyatı təxminən 2 dəfə, qeyri-neft sektoru isə 1,8 dəfə artıb».

Nazir onu da qeyd edib ki, 2007-ci ildə 2003-cü illə müqayisədə icmal və dövlət büdcələri xərclərinin dəfələrlə, dövlət investisiya qoyuluşunun həcminin isə 20 dəfədən çox artmasına baxmayaraq, dövlətin məcmu valyuta ehtiyatlarının davamlı artımı təmin edilib. Onların məbləği 4,5 dəfə artaraq 7,2 mlrd. ABŞ dollarını üstələyib. Qeyd edək ki, təkcə Dövlət Neft Fondunun vəsaitlərinin məbləği ötən il ərzində 1 mlrd. dollar həcmində artıb.

## Milli Bankın valyuta ehtiyatları artıb

Azərbaycan Milli Bankının (AMB) sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi 2007-ci il ərzində 2 048 mln. ABŞ dolları və ya 2 dəfədən çox (104,1%) artaraq 4 015,3 mln. dollara çatıb.

Xatırladaq ki, Milli Bankın sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi 2006-cı il ərzində də 2 dəfədən çox (105%) artaraq 2007-ci il yanvarın 1-də 1 967 mln. dollara çatıb. Ümumilikdə isə son iki il ərzində mərkəzi bankın rəsmi valyuta ehtiyatlarının həcmi 4,18 dəfə artıb.

## Azərbaycan əhalisinin 16%-i yoxsuldur

Keçən ilin sonunda Azərbaycanda əhalinin sayının 4,5% artması şəraitində yoxsulluğun səviyyəsi 2003-cü ilə nisbətən 2,5 dəfə azalıb.

Bu barədə maliyyə naziri Samir Şərifov məlumat verib: «2003–cü ildə ölkə əhalisinin təxminən 45%-i yoxsulluq şəraitində yaşayırdısa, hazırda bu kateqoriyaya əhalinin yalnız 16%-i aid olunur».

Nazir onu da qeyd edib ki, 2007-ci ildə Azərbaycanda 145 min yeni, o cümlədən 105 min daimi iş yeri açılıb, bütövlükdə isə 2003-cü ilin oktyabrından 2007-ci ilin sonunadək olan dövr ərzində 642 min yeni iş yeri yaradılıb.

Azərbaycanda adambaşına düşən pul gəlirlərinə gəldikdə isə S.Şərifov bildirib ki, 2007-ci ilin sonunda əvvəlki illə müqayisədə ölkədə adambaşına düşən pul gəlirləri 38% artaraq 1 670 manata, orta aylıq əmək haqqı 42% artaraq 214 manata, təyin olunmuş aylıq pensiyanın orta məbləği isə 44% artaraq 59 manata çatıb.

Bundan başqa, ötən il ərzində məcburi köçkünlərin hər cür sosial infrastruktura malik qəsəbələrə köçürülməsi məqsədlərinə 154 milyon manat vəsait sərf olunub.

## 110 yaşlı azərbaycanlı



Azərbaycanın Lerik rayonundakı Uzunömürlülər Muzeyinin əməkdaşlarının təşəbbüsü ilə rayonun Peştətük kənd sakini, 1898-ci il təvəllüdlü Məhbubə Həsənverdi qızı Fətullayevanın 110 illik yubileyi qeyd olunub.

Mərasimdə yubilyarın övladları, nəvə-nəticələri, qonşu kəndlərdən olan həmyaşıdları iştirak ediblər. Üç əsrin şahidi olan Məhbubə Fətullayevanın 10 övladı, 50-dən çox nəvə-nəticə və kötücəsi var. Xalça, palaz, xurcun, corab və digər əşyalar toxuyan Məhbubə nənə bu qədim sənətin incəliklərini qız-gəlinlərinə də öyrədib.

Məhbubə Fətullayeva insanlara ən şirin nemət olan cansağlığı və uzun ömür arzulayıb: "Ən böyük arzum düşmən tapdağı altında qalmış torpaqlarımızın tezliklə işğaldan azad edilməsi, qaçqın və köçkün bacı-qardaşlarımızın dədə-baba yurdlarına qayıtmasıdır. Allah Azərbaycana firavanlıq, bu ölkənin vətəndaşlarına isə şən və bəxtiyar həyat nəsib eləsin".

# *Dünya xəbərləri*

## ABŞ Ermənistana maddi yardımı azaldıb

ABŞ prezidenti Corc Buş Ermənistana keçən illə müqayisədə 17,5 milyon dollar az maddi yardımı nəzərdə tutan büdcəni imzalayıb. Prezident Buşun imzaladığı sənəd bir müddət əvvəl Konqresin hər iki palatasının təsdiq etdiyi büdcənin xərclər maddəsinin dəyişməmiş variantı idi.

Həmin sənədin Azadlıq Aktına Dəstək hissəsində Ermənistana 58,5 milyon dollar yardımın göstərilməsi təsbit olunub. Bu, 2007-ci illə müqayisədə 17,5 milyon dollar azdır. Azərbaycan üçün ayrılan yardım isə 19 milyon dollardır.

Eyni zamanda bu il Azərbaycanla Ermənistana 3 milyon dollar həcmində eyni miqdarda hərbi yardım göstərilməsi də nəzərdə tutulub.

Xatırladaq ki, 2008-ci ilin büdcə maddələrinin Ermənistanın ziyanına olması ABŞ-da fəaliyyət göstərən erməni təşkilatlarının etirazına səbəb olub.

## Mixail Saakaşvili qalib gəlib



Gürcüstanda keçirilmiş növbədənkənar prezident seçkilərinin ilkin nəticələri açıqlanıb. İlkin nəticələrə görə keçmiş prezident Mixail Saakaşvili qalib gəlib.

Mixail Saakaşvili seçkidə iştirak edənlərin 67,3% -nin səsini qazanıb. İkinci yerdə olan müxalifətin lideri Levan Qaçeçiladze 22,33% səs alıb. Sonrakı yerləri isə Arkadi (Badri) Patarkasişvili (5,9%), David Qamqrelidze (3,49%), Şalva Natelasvili (4,43%), Georgi Maisasvili (0,68%) və İrina Sarisvili (0,14%) tutub.

Lakin müxalifət nəticələrlə razılaşmadığı üçün mitinq keçirib. Birləşmiş müxalifətin lideri Levan Qaçeçiladze seçkilərin əsasən saxtalaşdırıldığını iddia edib: "Mən regionlarda Saakaşvilinin qələbə qazanması faktı ilə razıyam. Amma bütün Tiflis mənə səs verib. Buna görə də onun qələbəsi tam deyil. Seçkilərdə saxtalaşdırmaya yol verilib".

## ABŞ və Türkiyə prezidentləri görüşüblər

ABŞ-da rəsmi səfərdə olan Türkiyə prezidenti Abdullah Güllə bu ölkənin prezidenti Corc Buş arasında görüş olub.

Görüşə Türkiyənin xarici işlər naziri Əli Babacan, enerji və təbii ehtiyatlar naziri Hilmi Gülər, dövlət naziri Mehmet Şimşək, Türkiyənin Vaşinqtondakı səfiri Nəbi Şensoy, Xarici İşlər Nazirliyinin müşaviri Ərtoğrul Apakan, Baş Qərargahın təmsilçisi Ələddin Sevim və digər Türkiyə rəsmiləri qatılıblar.

ABŞ tərəfdən isə görüşdə dövlət katibi Kondoliza Rays, ABŞ-ın Ankaradakı səfiri Ross Uilson, Pentaqonun Baş Qərargahının təmsilçisi və digər şəxslər iştirak ediblər.

Görüşdə prezidentlər ABŞ-Türkiyə münasibətləri, Yaxın Şərqdəki vəziyyət, Türkiyənin PKK-ya qarşı apardığı mübarizə, qondarma erməni iddiaları ilə yanaşı və digər aktual məsələlərlə bağlı müzakirələr aparıblar. Corc Buşun rəsmi dəvəti ilə həyata keçirilən səfər çərçivəsində Türkiyə prezidenti ABŞ-ın dövlət katibi Kondoliza Rays və vitse-prezident Dik Çeyni ilə də görüşüb.

## Mədəni irsin vəziyyəti öyrənilir

"Avropa Şurası Parlament Assambleyasının Mədəniyyət, Təhsil və Elm Komitəsinin Cənubi Qafqazda mədəni irsin vəziyyətinin öyrənilməsi üzrə missiyasının yaxın zamanlarda bölgəyə səfər etməsi o qədər də vacib deyil".

Bu açıqlamanı AŞ PA Mədəniyyət, Təhsil və Elm Komitəsinin Cənubi Qafqazda mədəni irsin vəziyyətinin öyrənilməsi üzrə məruzəçisi, britaniyalı deputat Edvard Ohara verib.

Ermənistanın xarici işlər naziri Vardan Oskanyanın bu missiyanın bölgəyə təcili səfərinin zəruriliyi haqqında bəyanatını dəyərləndirən Edvard Ohara qeyd edib ki, Avropa Şurası bu təşəbbüsündən imtina etməyib: "Mənim missiyamın səfəri xoş məram jestidir. Ola bilər ki, bölgəyə belə bir missiya göndərilsin və məni də o missiyanın tərkibinə seçsinlər. Amma, bu, mənim etmək istədiyimdən fərqli bir şey olacaq".


## Bill Gates "Microsoft" şirkətindən gedəcək

Bill Gates "Micrisoft" şirkətindən gedəcəyini və fəaliyyətini "Bill & Melinda Gates Foundation" xeyriyyə fondunda davam etdirəcəyini bəyan edib. Bill Gates bu bəyanatını elektronikanın inkişafı sərgisinin açılışında səsləndirib.

Onun sözlərinə görə, XXI əsrin ikinci onilliyində insanlar bir-birləri ilə fərdi qaydadan çox, kompüter vasitəsilə əlaqə saxlayacaqlar. O, həmçinin getdikcə klaviatura və mausun öz əhəmiyyətini itirəcəyini və məişətdə bu vasitələrdən istifadə edilməyəcəyini bildirib. Bill Gates həmçinin bildirib ki, rəhbərliyinin son dövründə "Microsoft" kompüter və yeni əməliyyatlar sistemi hazırlayacaq. Qeyd edək ki, Bill Gatesdən sonra şirkətə kimin rəhbərlik edəcəyi açıqlanmayıb.

# TƏBRİZDƏ ERMƏNİSTANIN KONSULLUĞU YARADILACAQMI?

## *İranda yaşayan azərbaycanlılar İran rəhbərliyinin qərarına etiraz edirlər*



"Fars" xəbər agentliyinin verdiyi məlumata görə İranın Nazirlər Kabineti Təbrizdə Ermənistanın baş konsulluğunun təsis edilməsinə müsbət münasibətini bildirib.

Layihəni İran prezidentinin birinci müavini ölkənin xarici işlər nazirinə təqdim etmişdir. Bu elə bir vaxta təsadüf edir ki, Ermənistan Respublikası İran Azərbaycanında bəzi sənaye sahələrinə sərmayə qoyuluşuna başlayıb.

İranın "Tabnak" xəbər agentliyi yanvarın 17-də bu haqda yazdığı icmalda bildirir ki, Ermənistan son vaxtlar İran Azərbaycana xüsusi maraq göstərir.

Məlumata görə, Ermənistanın dövlət nümayəndələri ilk dəfə 2004-cü ildə iqtisadi əməkdaşlıq və sərmayə qoyuluşu məqsədilə İran Azərbaycanına səfər etmişdilər. Lakin əhalinin etirazına görə heç bir nailiyyət əldə edilməmişdi. Belə ki, Ərdəbilə səfər edən Ermənistan heyətinin bəzi üzvlərinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ və başqa işğal edilmiş ərazilərdən gəlməsi aşkar edildikdən sonra yerli Azərbaycan fəalları, o cümlədən də Abbas Lisani etiraz nümayişləri keçirərək, Ərdəbilin Sərçeşmə məscidində oturaq aksiyası elan etmişdilər.

Aksiya silahlı qüvvələrin basqını və etiraz edənlərin həbsi ilə sona çatmışdı. Lakin münbit Muğan ərazisinin kənd təsərrüfatında sərmayə qoymaq istəyən erməni nümayəndələri də yerli əhalinin rəğbətini qazana bilməmiş, məntəqəni tərk etməli olmuşdular.

Həmin mənbəyə əsasən, Muğan və Xiyav (Mişkin) əhalisi Qarabağ məsələsinə görə erməni nümayəndələrinə olduqca mənfi münasibət göstərmişdi.

Az sonra millət vəkili Məhəmmədəli Qəribani Ərdəbilin iqtisadi çətinliklə üzləşən Muğan Dəri Zavodunun idarəsini Ermənistandan gələn mütəxəssislərə tapşırmışdı.

Son bir ay ərzində Ermənistanın daha iki sənaye şirkəti Ərdəbil vilayətində alüminium və beton zavodları təsis etmək məqsədilə fəaliyyətə başlayıblar.

"Tabnak" xəbər agentliyi bildirir ki, eyni vaxtda Abbas Lisaninin Ərdəbil zindanından Əhərə həbsxanasına aparılması təsadüfi deyil. Milli fəal və onun himayəçilərini məntəqədən uzaqlaşdırmaq yeni etiraz dalğasının ehtimalını azaltmaq məqsədi daşıyır.

Azərbaycan XİN-in mətbuat katibi Xəzər İbrahim həftəlik mətbuat konfransında həmin məsələ ilə bağlı deyib: "Bakı ümid edir ki, Təbrizdə Ermənistan konsulluğunun yaradılması ilə bağlı İran azərbaycanlılarının həssaslıqlarını Tehran nəzərə alacaq".

İranda yaşayan azərbaycanlılar Təbrizdə Ermənistanın konsulluğunun açılması barədə ölkə rəhbərliyinin qərarına etiraz edirlər və bununla bağlı imzatoplama kampaniyasına başlayıblar.

Xəzər İbrahim İranla Azərbaycan arasında ötən ay yaranmış anlaşılmazlığa da toxunub. Onun sözlərinə görə, Tehran hələ də Bakıya aldığı məlumatlarla bağlı rəyini bildirməyib.

Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi şərti adı "Səidin dəstəsi" olan qrupu İranın kəşfiyyat orqanları ilə işbirliyində ittiham edir. Tehran bununla razılaşmır və Bakıdan fakt istəyirdi.

Xəzər İbrahim deyib ki, Azərbaycan tərəfi faktlarını rəsmən təqdim edib və İran bundan razı qalıb-qalmadığını hələ demir.

# TƏLƏBƏ SORĞUSU

*Ənənəvi olaraq hər semestrin sonunda Xəzər Universitetinin tələbələri arasında anonim sorğu keçirilir.*
*Son sorğudan bəzi seçmələri oxucularımızın diqqətinə çatdırırıq.*

## "Həkimin qocası, müəllimin cavanı"

• Tələbələrə hər cür köməklik edir. Ən əsası odur ki, bal kəsmir.

• "Həkimin qocası, müəllimin cavanı" deyimi ilə çox razıyam. Müəllimlikdən əlavə tələbələrlə həm də gözəl dostluq münasibəti qurur.

• Hüquq elminin atasıdır. O bizim atamız kimidir!

• Yalnız onu qeyd etmək kifayətdir ki, o sənətkardır.

• Dərsi aydın izah etmək qabiliyyətinə malikdir. Həm də insanı başa düşməsi çox gözəl əlamətdir. Balları necə paylayacağını tələbələrdən soruşur.

• Xahiş edirəm, digər müəllimlər bu müəllimdən dərs keçmə və uşaqlarla ünsiyyəti öyrənsinlər.

• İstədiyi vaxt ciddi, istədiyi vaxt da zarafatcıl ola bilir.

• Sirlərini gizlətməyə çalışır.

• Dərin biliyə malikdir. Bütün 80 dəqiqəni danışır.

• Keçdiyi çox səviyyəli dərs üçün ona çox təşəkkür edirəm.

• Dərsi başa salması və bilmə səviyyəsi əladır, amma çox tələbə bunu başa düşmür. Bir gənc kimi xahiş edirəm ki, tələbələrə azadlıq verin. Aktivliyimizi kəsir, özündən elmə məlum olmayan metodlar kəşf edir. Xahiş edirəm ki, tədbir görəsiniz.

## "Adam ona sual verməyə utanır"

• Sözü üzə deyir, uşaqları utandırır. Onun tayı-bərabəri yoxdur. Ona can qurban! Bir az əsəbi müəllimdir. Hər şeydən hirslənir. Dərsi maraqlı üsulla izah edir. Onun dərsinin bitməsini istəmirik.

• As a föreign stüdent I am impressed and admire him that he is absölütely "internatiönal çlass" teaçher. He is perfeçtly pröfessiönal in teaçhing, çöaçhing and experiençe.

• Onun dərsində əhval-ruhiyyəm çox yüksək olur. Dərsi çox əla izah edir.

• We are tired öf Miçrösöft PöwerPöint presentatiön, if pössible, please, çhange it.

• Yaxşı müəllimədir, amma çox sakitdir. Ay müəllimə, belə sakit olmayın.

• Adam ona sual verməyə utanır, pərt eləyir.

• Cavan müəllimin yeri ayrıdır, bizləri başa düşür. Müəllim çox yaxşı müəllimdir, amma bir mənfi xüsusiyyəti var, o da tez-tez danışmasıdır.

• Çox əla müəllimdir. Nə söz verirsə, hamısını yerinə yetirir.

• Siz bizim ən çox hörmət etdiyimiz müəllimsiniz, amma dərsə bir az vaxtında gəlin .

• Dərs sıxıcı keçir, adamın ürəyi sıxılır, hamı yuxulayır. Amma yaxşı müəllimdir. Savadlı, bilikli müəllimdir, bir az çürükçüdür.

• Uşaqlara çox sərbəstlik verir. Bəzən bu tələbələrin bundan istifadə etməsinə gətirib çıxarır. Bir az ciddi olsa lap yaxşı olar.

• Allahı inkar edir, ona qarşı çıxanda balını kəsir. Tələb edir ki, filosof kimi danışaq. Yaxşı və bilikli müəllimdir, sadəcə bəzi tələbələr onu başa düşmək istəmir. Bir az insaflı olsa yaxşı olar. Özü tolerantlıqdan danışır, amma islamçılara təhqirlə yanaşır. Müəllim dərs keçsin, amma təbliğ eləməsin.

• Yaxşı müəllimdir, amma dərs keçməsi xoşuma gəlmir. Bu fənn bazar günü olmasaydı əla olardı.

## Yarı rus, yarı ingilis, yarı Azərbaycan...

• Müəllim dərsin 50%-ni rus dilində, 30%-ni ingilis dilində, 20%-ni isə Azərbaycan dilində başa salır.

• Dərsləri interaktiv etmir. Yalnız özü danışır. Azərbaycanı həmişə Almaniya ilə müqayisə edir. Bir sözü 15 dəfə təkrar edir.

• Evə dərsi ingilis dilində verir, amma sinifdə rus dilində başa salır. Bu Azərbaycan bölməsində olan uşaqlara çətinlik yaradır.

• Bizi şirkətlərə göndərir, oradan da bizi qovurlar.

• Bəzən səbirli və mehriban olur, dərsləri yaxşı keçir, bəzən də heç nə başa düşmürük və heç nə soruşa bilmirik. Asan materialları çətin dildə başa salır.

• Çox sərtdir. He has to improve his English, his knowledge and way of teaching.

• He is exçellent! I think he has tö impröve his English as well.

• Impröve yöür English a little bit!

## "Hirslənəndə ondan qorxuruq"

• Tələbələrə hörmət etmir, tələbələrin şəxsiyyətinə toxunur. Qəlbimizi qıran sözlər deyir.

• Bir nəfərin günahı olanda ona deyil, bütün qrupa acıqlanır. Dərs keçməsi əladır, amma mehribanlığı yoxdur. İlk gündən bizlərə mehriban və gülərüzlə dərs keçir, ancaq tez hirslənir, əsasən də tələbələr dərsə gecikəndə və dərsi yaxşı öyrənməyəndə çox əsəbiləşir. Hirslənəndə biz ondan qorxuruq. Hərdən aqressiv olur. Bunu ona məsləhət görmürəm, çünki bu ona yaraşmır.

• O, bizim səviyyəmizdən artıq tələb edir, ona görə də nə imtahan yazılarımız, nə də cavablarımız çox vaxt onu qane etmir. Materiallar çooox çətindir. Biz bütün fənləri kənara qoyub, ancaq bunu oxuyuruq. Çox dərs keçir, dərs çox verir.

• Dərsi yaxşı bilir, amma qızlara qarşı necə davranmağı bilmir. Uşaqlar dərsdə çox danışır. Dərsdə danışanları danışmağa qoymasın.

• Müzakirədə yalnız özünü haqlı çıxarır.

• Verdiyi qiymətlər tam səmimi və düzgündür. Müəllimənin intellektual səviyyəsi son dərəcə yüksəkdir, amma iradım odur ki, dərsi maraqlı üsulla aparmır. Başqa hər şey əladır. Xahiş edirik, danışıq surətini azaltsın. İslamın çox dərinliyinə gedir. Bu müəllimə heç nədən dərsdə yaman tez-tez əsəbiləşir. Bu məsələ barədə öz üzərində işləsin, çünki bu tələbələrin xoşuna gəlmir. İmtahanda çətin sualları azaltsa pis olmaz. Biz yalnız dərs keçirik. Heç bir diskussiya və ya buna bənzər bir şey etməyə icazə vermir. Bizimlə elə davranır ki, elə bil bağça uşaqlarıyıq. Demək olar ki, onun üzünün güldüyünü görməmişik. Çox ciddi qadındır.

• He is very strange. We müst disçöver him, but he is a brilliant in his field. Əla müəllimdir, amma zalımdır. Yalvarmaqdan dilimiz-dodağımız quruyub. Boş-boş dərslər keçməkdənsə belə fənlərin sayını artırsanız daha yaxşı olar. Onun dərslərinin həftənin hər günü olmasını istəyirəm. Dərsdə birinci sinif materialı keçirsiniz, imtahana isə siyasi tərcümə salırsınız. Bütün dərs yazırıq, yazdıqlarımızı heç müzakirə etmirik. İmtahanda isə yazdıqlarımızı əzbərləyirik. Çox maraqlı dərsi çox maraqsız ediblər.

• Bir pröblem ödür ki, hərdən bir dərsə gələ-gələ bizə qayıb yazır. Jurnalı düzgün yoxlamır. Bəzən dərsi darıxdırıcı olur. Slaydlardan istifadə etmir, ancaq yazdırır. Müəllimə dərsə gecikir. Dərsə ciddi yanaşmır, nə vaxt istəsə onda gəlir.

• Bir insan kimi əladır, ancaq dərsi o qədər soyuq, cansıxıcı keçir ki, dərsdə ürəyim partlayır. Tələbələrə haqları olmayan balı verir. Tələbələr müəllimənin yaxşılığından çox istifadə edirlər.

## "Mən onu baxanda müsbət enerji alıram"

• Onu hər gün gülərüz görəndə bizim də əhval-ruhiyyəmiz yüksəlir. Dərs deməsi pis deyil, amma aktivliyə gəlincə üzə gülür, arxanca nə istəyirsən edir.

• Gənc olmasına baxmayaraq müəllimənin böyük təcrübəsi var. Xarab kompüterlər müəlliməni bezdirib, xahiş edirəm, onları dəyişdirin.

• Dərsdə çox sakit və yavaş danışdığı üçün yuxumuz gəlir.

• O qədər gözəl insan və müəllimədir ki, şəxsən mən ona baxanda müsbət enerji alıram.

• Mən önün səbirlə çavab verməsinə heyranam. Ö, digər müəllimlərdən fərqli olaraq tələbəyə yalnız lazım olanları izah edir.

• Dərsi keçmə və bilmə qabiliyyəti əladır, ancaq tələbələrin dərsi nə səviyyədə qavraması, öyrənib-öyrənməməsi onu maraqlandırmır. Xoşum gəlir. Şirindil, gülərüzdür. Tələbə ona baxanda, qulaq asanda yorulmur.

• Belə müəllimə demək olar ki, çox çətin tapılar. Tələbələrdən xahiş edirəm ki, onun mülayimliyindən istifadə edib dərsdə səs salmasınlar. Xahiş edirəm ki, çox da fəal olmayan tələbələrə fikir versin. Ola bilər ki, onlar öz biliklərini lazımi qədər göstərmirlər. Aktivliyi qiymətləndirəndə ədalətli olsun.

• Çox maraqlı dərs aparır və ona qulaq asanda insan otaqdan çıxmaq belə istəmir. Uşaqlar öyrənmək istəmədikdə o əzab çəkir.

• Siz mənim xatirələrimdə həmişə zərif bir qadın, incə qəlbli ana və ana nəvazişli müəllimə kimi qalacaqsınız. Yaxşı ki sizi tanımışam.

## "Elə bil SSRİ vaxtında dərs keçir"

• Hər ikinçi dərsin 30 dəqiqəsini keçmirik. Müəllim yorulur. Yorulmağı bizim üstümüzə qoyur. Müəllim biliklidir, ancaq bir şey var ki, dərsi izah edəndə insanın həvəsi çatmır qulaq asmağa.

• Elə bil axşam oxuyur, gəlib danışır. Dərsdə uşaqların dərsdən kənar mövzularda söhbət etməsinə yer verir.

• Dərsdə sual verəndə deyir ki, sualını saxla dərsin axırına, dərsin axırında isə suallara heç cavab vermir.

• Heyf bu fənnə sərf olunan vaxta. Elə bil keçmiş SSRİ vaxtında dərs keçir, çox geridə qalmış, keçmiş metodlarla dərs keçir.

• Axır vaxtlar bizi çox sıxır. Əsəbi olub. Buna səbəb tələbələrin tez-tez dərsə gecikməsidir. Dərsi aydın şəkildə izah edir. Ancaq hərdən çox aqressiv olur. Tələbələrin şəxsiyyətinə hörmətlə yanaşan müəllimlər sırasında ilk yeri tutur.

• Bir insan kimi çox hörmət edirəm, amma müəlliməliyi bacarmır. Statistikanı icad edənlərdən başqa heç kəs yâxşı başa düşmür.

• Müəllim çox mədəni insandır, amma biz özümüz dərsi çox yaxşı başa düşmürük.

• Çox cansıxıcı dərs keçir, amma öz fənnini mükəmməl bilir.

## "Cırtdanın nağılı"

• Dərsdə qrammatikadan başqa həvəsləndirici və ya maraqlı hekayə və nağıllar olsaydı, dili daha yaxşı mənimsəmək olardı.

• Ədəbiyyat keçiriksə, elmi səviyyədə olsun, daha "Cırtdanın nağılı"nı öyrənməyək.

• Nə vaxta kimi kitabdan oxuyacağıq?! Bizə nəzəriyyə yox, praktika lazımdır.

• "Case"ləri çox çətindir. Nəzərə almalıdır ki, biz hamımız bankda işləməyəcəyik. "Case"lərlə işləmək çox maraqlıdır.

• Dərs vəsaiti var, lakin olmasa bundan yaxşıdır. Uşaqları tanıya bilmir. Dəhşət bal kəsəndir. Tələbələr arasında fərq qoyur. İki tələbəyə mehribanlıq göstərir, qalanlarına isə əksinə. Bu fənn çox da vacib fənn deyil, amma müəllim bu fəndən bizim alim olmağımızı istəyir.

## "Xəzər"də oxuyuruq" deyəndə elə bilirlər xarici ölkədə təhsil alırıq

• Ey mənim universitetim, sükanı belə saxla!

• "Xəzər"də oxuduğum üçün özümü xoşbəxt hesab edirəm.

• Kənarda "Xəzər"də təhsil alırıq" deyəndə hamı bizə bir başqa baxır, elə bilirlər ki, hər hansı xarici ölkədə təhsil alırıq, amma gəl bir də bizim çəkdiklərimizə bax. Gündə yeni qanunlar çıxır.

• Mən Xəzər Universitəsindən çox razıyam. Öxü, qiymətləndirsinlər.

• Azərbaycanda bizim üniversitə kimi tədris müəssisəsi tanımıram, ona görə də öz üniversitəmlə fəxr edirəm. Burada tədris çox güclüdür.

• "Xəzər"də təhsil əladır, sadəcə təhsil haqqı çox yüksəkdir.

• Siz nə vaxt yazıq tələbələrin halına yanacaqsınız???

• Tələbələrin, dekanlığın həm rəftarında, həm də geyimlərində çox azadlıqdır.

## "İmtahana dabanlı ayaqqabı ilə gəlməyin"

• Hansı tələbə onunla söz güləşdirirsə, dava edirsə, həmin tələbəyə maksimum bal verir ki, canı qurtarsın.

• İmtahana dabanlı ayaqqabı ilə gəlməsinlər. İmtahanda nəzarətçilərin ayaqqabılarının taktakı əsəblərimizi pozur.

• İmtahanda nəzarəti gücləndirsinlər. İmtahanda qarşıda deyil, arxada durun, çünki köçürənlər qabaqda yox, arxada əyləşir.

• Müəllimlər tələbələri kəsməyə çalışmasın. Valideynlərə yazığınız gəlsin.

• Nə vaxt "Xəzər"də müəllim problemi həll olunacaq?

• Deyir ki, imtahanda adi sözlə fikirlərimizi çatdırmalıyıq. Amma biz ali savad alırıq, ona görə də elmi dildə yazmalıyıq.

• İmtahan dəhşət çətin keçdi. Xahiş edirik ki, bizi bir az da olsa anlayın. Dərsdə ancaq ingilis dilində danışmağı tələb etsə daha yaxşı olar. Bu məsələdə çox da tələbkar deyil. Dərsdə kinoya baxsaq əla olar.

• Super müəllimdir, amma kaş imtahanı çətin olmayaydı.

• İmtahandan çox qorxuruq, azərbaycanlı olsaydı yaxşı olardı.

• Zəhmət ölmasa, imtahanın vaxtını uzadın, çünki sualların hamısı açıq şəkildədir, bir variantda 10 sual olur. Narazılığım bu barədədir. Müəllim bizə yazdırır. İstərdik ki, materialları bizə versin, surətini çıxarıb öyrənək.

• Midterm imtahanı çox çətin oldu, hamının balı çox aşağı oldu. Belə getsə heç kim bu fəndən keçməyəcək. Xahiş edirəm ki, final imtahanında köməklik göstərəsiniz.

## "Kitabxana sevgililər bağına oxşayır"

• Kitabxanaya diqqət yetirin. Ora sevgililər bağına oxşayır.

• Kitabxana həmişə səsli olur. Oradakı qızlarsa qələmi stolun üstünə elə vururlar ki, adamın başı ağrıyır.

• 101-çi ötaqdakı kitabxanaçı mahnıya qulaq asır. Biz içəri girəndə heç mahnını söndürmür, klaviaturanın səsindən dərs oxuya bilmirik.

## "Bufetdə "probka" olur"

• Büfetə diqqət yetirin, sanki sevgililər bağıdır. Boş-boş oturub yerləri zəbt edirlər.

• Bir qab kartöfü bir kilöqram kartöf qiymətinə yeyirik.

• Bir peraşki nədir ki, onun qiyməti də 20 qəpik ola??? Belə olmaz, bu özbaşınalıqdır.

• Saat 12-də bufetdə elə "probka" olur ki, heç axşam saat 8-də Dərnəgüldə elə "probka" olmur. Bu nədir???

• Yeməkxanada stolların üzərinə duz və istiot qoysalar pis olmaz.

## "Qocalana kimi oxumayacağıq ki!"

• Niyə bizə düzgün cədvəl qurmurlar? Həftənin yeddi günü dərsimiz var. Bəs istirahət günü nə vaxt olacaq?

• Bezmişəm bu universitetdən. Tezdən - saat 9-dan axşam saat 6-ya qədər buradayıq.

• Müalicə fakültəsinin kreditini qaldırmayın. Biz qöçalana kimi "Xəzər"də oxumayacağıq ki!

• Dərs vaxtı koridorlara nəzarət edilsin. Tələbələrin səs-küyündən, mobil telefonların musiqisindən təngə gəlmişik.

• İbadət otağında qızlarla oğlanların otağını ayrı edin.

• Xahiş edirəm ki, universitetdəki eşq-məhəbbət macəralarına son qoyulsun.

• Universitetdə boş otaq tapmırıq, hamısını sevgililər tutub.

• Kserköpiyalar bizi "bankröt" elədi.

*Müsahibə*



# AZƏRBAYCANIN BEYNƏLXALQ LAYİHƏLƏRƏ QOŞULMASI BÖYÜK ƏHƏMİYYƏTƏ MALİKDİR

*Suallarımıza Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru Şahin MUSTAFAYEV cavab verir*

**Son zamanlar Azərbaycan elminin bir sıra sahələrində ayrı-ayrı alimlərimizin, xüsusilə gənc mütəxəssislərimizin qazandığı uğurlar hər birimizi sevindirir, elmimizin sabahına daha nikbin baxmağa inam yaradır. Elm adamlarımızın xarici elmi mərkəzlərlə, institutlarla, digər elmi qurumlarla sıx əməkdaşlıq əlaqələri yaratması bu istiqamətə daha çox diqqət yönəltməyimizi tələb edir.**

**Bu baxıdan daha bir sevindirici xəbər Özbəkistanın Səmərqənd şəhərindən gəldi: Azərbaycan Milli Elmlər Akademiyasının akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri namizədi Şahin Mustafayevin Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru seçilməsi sorağı qəlbimizi fərəhlə doldurdu. Elə bu xoş xəbər "Şərqi Anadolu: Ağqoyunlulardan Osmanlı İmperiyasına qədər" *(Moskva, 1994)*, "Tiflis əyalətinin müfəssəl dəftəri" *(Bakı, 2001)*, "Lori vilayətinin icmal dəftəri" *(Bakı, 2004)* kimi elmi əsərlərin müəllifi ilə görüşümüz üçün bəhanə oldu.**

**Oxucularımız üçün də maraqlı olacağını nəzərə alaraq həmin söhbətimizin mətnini dərc edirik.**

***–Şahin müəllim, xahiş edirik, yeni vəzifənizin məqsədi, məramı barədə oxucularımıza qısaca da olsa, məlumat verəsiniz...***

– Bu institutun yaranma məramı onunla bağlı idi ki, 1990-cı illərin əvvəllərində UNESCO-nun qərarı ilə "Böyük İpək Yolu" adı altında beynəlxalq bir layihə çərçivəsində araşdırmalar aparılırdı. Bu layihənin son nəticəsi olaraq, bu yerlərə gələrkən onlar burada elmi araşdırma və koordinasiya mərkəzi yaratdılar. Bu mərkəzlərdən biri də mərkəzi Səmərqənddə olan Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutudur. 1995-ci ildə UNESCO-nun qərarı ilə təşkil edilmiş bu institutun əsas məqsədi Mərkəzi Asiya ölkələri xalqlarının, tarixinin, arxeologiyasının, mədəniyyətinin vəziyyətini araşdırmaq, onların arasında mübadilə və elmi koordinasiya yaratmaqdır.

Mən 1999-cu ildə Qırğızıstanda (Bişkekdə) keçirilən böyük bir elmi konfransda iştirak edirdim. Orada bu institutun əməkdaşları ilə tanış oldum. Onlar məni bu institutun elmi konfranslarında iştirak etməyə dəvət etdilər. Oradan qayıtdıqdan sonra Azərbaycanın da bu instituta üzv olması üçün təşəbbüs qaldırdım və Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi ilə görüşlərim oldu. Şərqşünaslıq İnstitutunun təşəbbüs qrupu adından o vaxt akademik Fərəməz Maqsudova müraciət etdim. Akademiyanın rəhbərliyi də bu təşəbbüsü dəstəklədi. Nəhayət, prezident Heydər Əliyevin sərəncamı ilə Azərbaycanın Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutuna üzv olması üçün UNESCO-ya müraciət edildi. 2004-cü ildən Azərbaycan bu institutun üzvlüyünə qəbul edildi. Azərbaycandan başqa Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Çin, Cənubi Koreya, Pakistan, İran da həmin institutun üzvləridir.

Azərbaycan buraya üzv qəbul olunduqdan sonra mən institutun akademik şurasının üzvü seçildim. Səmərqənddə hər il institutun akademik şurasının iclasları keçirilir və mən də bu iclaslarda iştirak edirəm. Nizamnaməyə görə hər dörd ildən bir institutun yeni direktoru seçilir. Son dörd ildə təşkilata Qırğızıstanın nümayəndəsi rəhbərlik edirdi. 2007-ci ilin noyabrında institutun akademik şurasının növbəti iclası keçirildi və yeni direktorun seçilməsi məsələsi gündəliyə çıxarıldı. Bu seçkilərdə növbəti dörd ildə instituta mənim rəhbərlik etməyim qərara alındı. 2007-ci il dekabrın 10-da Səmərqənddə Baş Assambleyanın iclası keçirildi və mənim vəzifəm rəsmi olaraq təsdiqləndi.

***– Çox gözəl! Bəs bu məsələnin Azərbaycan elmi, Azərbaycan tarixçiliyi üçün nə kimi əhmiyyəti var? Buradan biz nə kimi fayda əldə edə bilərik?***

–Məsələ burasındadır ki, Sovet dövründə bizim bütün müttəfiq respublikalarla, o cümlədən Orta Asiya ilə hər sahədə əlaqələrimiz var idi. Elmi əlaqələrimiz də çox güclü idi. SSRİ dağılandan sonra bu əlaqələrimiz böyük ölçüdə itdi. İndi həmin əlaqələri bərpa edə bilmirik. İnstitutun əsas məqsədlərindən biri odur ki, bu ölkələrin alimləri arasında elmi əlaqələri, elmi mübadiləni bərpa etsin. Bir elmi koordinasiya mərkəzi olaraq tarix, arxeologiya, mədəniyyət sahələrində elmi layihələrin reallaşmasını öz üzərinə götürsün. Bu baxımdan Azərbaycanın da bu layihələrə qoşulması böyük əhəmiyyətə malikdir. Hər halda biz daha geniş, daha böyük bir elmi məkana çıxırıq. Alimlərimiz bu institut vasitəsi ilə öz fəaliyyətlərini beynəlxalq səviyyədə davam etdirə, öz elmi nəticələrini beynəlxalq ictimaiyyətə çatdıra bilərlər. Azərbaycan üçün Mərkəzi Asiyanın həddindən artıq böyük əhəmiyyəti var.

Azərbaycan tarixən istər etnik, istər mədəni, istər ədəbi əlaqələr baxımından həmişə bu regionla sıx bağlı olub. Orta Asiyanın tarixini, mədəniyyətini bilmədən biz qədim və orta əsrlər tariximizi lazımınca öyrənə bilmərik. Çünki oradan bizə çox böyük təsirlər olub. Misal üçün, orta əsrlərdə Nəsiminin hürufilik cərəyanını öyrənmək üçün Teymurləngin dövrünü, o şəraiti və s. öyrənməsək, bilməsək, onların təsirini aydınlaşdırmasaq, o dövrü lazımınca tədqiq edə bilmərik. Orta əsrlərdə nə qədər ədiblərimiz Nəvaidən, Camidən, Rudəkidən və digər şairlərdən təsirlənibələr. Eyni zamanda o xalqlara da bizim böyük təsirlərimiz olub. Xüsusilə XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan modernləşmə hərəkatının həm Rusiyada, həm Orta Asiyada, həm də ümumən islam dünyasında liderlərindən olub. Azərbaycanın, Bakının – bizim mədəniyyətimizin Orta Asiyaya çox böyük təsirləri var. Bizim teatr truppaları gedib orada tamaşalar qoyub. Bizim qəzet və jurnallarımız oralarda geniş yayılıb.

Bir daha qeyd edim ki, ümumi tarixi əlaqələrimizi müştərək şəkildə öyrənməklə Azərbaycan tarixinə çox böyük qiymətlər vermiş olacağıq.

***–Məlumdur ki, işğal altında olan ərazilərimizdə çoxlu sayda maddi və mənəvi abidələrimiz var. Sizin rəhbərlik etdiyiniz institut bir beynəlxalq təşkilatın – UNESCO-nun maddi və mənəvi dəstəyi ilə yaradılıb. BMT-nin adı çəkilən təşkilatının vəzifələrindən biri də dünyanın hansı yerində olmasından asılı olmayaraq tarixi abidələri qorumaqdır. Necə düşünürsünüz, bu institutun xətti ilə işğal altında olan ərazilərdə (istər Qarabağda, istər indiki Ermənistan ərazisində) qalmış abidələrimizin tədqiqi, təhqiqi, təbliği ilə bağlı nə etmək mümkündür?***

–Mənim iştirak etdiyim Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutu ikinci kateqoriyalı bir qurumdur. Bu, o deməkdir ki, institut müstəqildir, amma o UNESCO-nun maliyyə dəstəyi ilə fəaliyyət göstərir. Təbii ki, UNESCO ilə bağlı olduğu üçün onun məqsədlərindən biri xalqların mədəni irsinin qorunması məsələsidir. Bu baxımdan hər hansı bir xalqın tarixi, mədəni abidələri başqaları tərəfindən məhv edilirsə, bu problem gec-tez qaldırılır, öyrənilir, problem müəyyən dərəcədə beynəlxalq səviyyədə öz əksini tapır. İnanıram ki, institutun fəaliyyəti zamanı bu məsələlərə də toxunulacaq, müəyyən addımlar atılacaq.

***–Gənc alimlərimizə tövsiyələriniz, arzularınız, sözünüz...***

–Gənc tarixçilərimizə mənim bir arzum var: Dövran dəyişir, hər şey dəyişir, şərait dəyişir. Biz artıq o köhnə üsullarla işləyə bilmərik. İşimizi o cür davam etdirmək, get-gedə geri qalmaq deməkdir. Azərbaycan mətbuatının əsasını qoymuş böyük maarifçimiz,, bütün Qafqaz ziyalılarının atası Həsən bəy Zərdabi deyirdi ki, dünyada zindəganlıqlar olur, yəni millətlər arasında mübarizə gedir. Kim mədəniyyət sahəsində, irfan sahəsində irəli gedəcəksə, o millətlər həyatda qalacaq, ayaq üstə duracaq və inkişaf edəcək. Mədəniyyət, elm, təhsil sahəsində geri qalan ölkələr, millətlər tarixdən silinib gedəcəklər.

Bu, Həsən bəy Zərdabinin bizə vəsiyyətidir. Biz bu vəsiyyəti unutmamalıyıq. Azərbaycan mədəniyyətinin irəli getməsi, dünyada özünü təsdiq etməsi üçün həmişə yeni üsullar axtarmalı, yeni şəraiti qəbul etməlidir. Ona uyğunlaşmalı və öz sözünü deməlidir.

Tarixçilərimiz də köhnə üsullarla işləyə bilməzlər. Dünyada tarixşünaslıq çox inkişaf edib, yeni üsullar əmələ gəlib. Biz bunları qavramalı, dərk etməliyik, içimizə qapanmamalıyıq, dünyaya çıxmalıyıq. Beynəlxalq səviyyədə öz sözümüzü deməliyik. Çalışmalıyıq ki, bizim sözümüzü bizim həqiqətlərimizi dünya səviyyəsində elmi ictimayyət eşitsin və qəbul etsin. Bunun üçün biz özümüz səviyyəyə yüksəlməyi bacarmalıyıq. Mən bizim gənc alimlərə, tədqiqatçılara tövsiyə edərdim ki, həmişə irəliyə getməyə, bizi inkişafa aparacaq yeniliyi qəbul etməyə hazır olsunlar. Yeni üsullarla, yeni dövrün tələbləri ilə işləməyə çalışsınlar.

***–Sizə bu məsuliyyətli işinizdə bir daha uğurlar arzulayır, yeni nailiyyətlərinizi gözləyirik.***

–Çox sağ olun!

*Müsahibəni apardı:*
***Cabir MƏMMƏDLİ***

# "LEYLİ VƏ MƏCNUN"UN 100 YAŞI VAR





**Dahi Üzeyir Hacıbəyovun məşhur operasının tamaşaya qoyulmasının bir əsrlik yubileyi qeyd edilmişdir**

Yanvarın 25-də Dövlət Akademik Opera və Balet Teatrında dövlət və hökumət nümayəndələrinin, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin, tanınmış sənət adamlarının, musiqiçilərin və ictimaiyyətin təmsilçilərinin iştirakı ilə dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının 100 illik yubileyi qeyd edilmişdir.

Teatrın foyesində ölməz sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi təşkil olunmuşdur.

Yubiley gecəsində nümayiş etdirilən videofilmdə Üzeyir Hacıbəyovun ömür yolu və müxtəlif illərdə "Leyli və Məcnun" operasına səhnə həyatı vermiş ölməz sənətkarlarımızın ifaları öz əksini tapmışdır.

Tədbirdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, Üzeyir Hacıbəyov müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisidir. O, öz zəngin yaradıcılığı və geniş ictimai fəaliyyəti ilə Şərq və Qərb musiqi mədəniyyətlərinin yaxınlaşması və qarşılıqlı faydalanması yolunda ən böyük və ən cəsarətli addımlar atmış ilk musiqiçilərdən biridir.

Nazir demişdir ki, Üzeyir Hacıbəyovun 1908-ci il yanvarın 25-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. Bu, dahi Azərbaycan şairi Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının motivləri əsasında bəstəkar Üzeyir Hacıbəyov tərəfindən qələmə alınmış Şərqin ilk operasıdır. Operanın librettosu da müəllifə məxsusdur. M.Füzuli poemasının lirizmini ifadə etmək üçün Üzeyir bəy operada xalq yaradıcılığının klassik nümunələrindən - muğamlarımızdan istifadə etmişdir. Bəstəkar muğamlarla yanaşı, ənənəvi formalardan - xor, balet, duet və kütləvi səhnələrdən yararlanaraq operaya əbədiyaşarlıq gətirmişdir.

Ə.Qarayev vurğulamışdır ki, Azərbaycan mədəniyyətinə, incəsənətinə daim diqqət və qayğı ilə yanaşan ulu öndər Heydər Əliyev 1995-ci ildə dahi bəstəkarın 110 illik yubileyində Üzeyir Hacıbəyovun yaradıcılığına böyük qiymət vermişdir.

Gecədə "Leyli və Məcnun" operası yeni quruluşda nümayiş etdirilmişdir.

Üç pərdəli, altı şəkilli tamaşanın musiqi rəhbəri və dirijoru xalq artisti Cavanşir Quliyev, quruluşçu rejissoru əməkdar incəsənət xadimi Hafiz Quliyev, quruluşçu rəssamı xalq rəssamı Rafiz İsmayılovdur.

Leyli rolunu xalq artisti Nəzakət Teymurova, Məcnun rolunu isə xalq artisti Mənsum İbrahimov ifa etmişlər.

Tamaşada digər rolları xalq artistləri Şahlar Quliyev, Səfa Qəhrəmanov, əməkdar artistlər Sahibə Abbasova, Sabir Əliyev, aktyorlar Təyyar Bayramov, Nizami Bağırov və başqaları ifa etmişlər.

Ölməz sənətkarımız Üzeyir Hacibəyovun böyük ustalıqla yaratdığı opera tamaşaçılarda hədsiz maraq doğurmuşdur.

# "MUĞAM MÜSABİQƏSİ - 2007"

***Üç aydan çox davam edən muğam müsabiqəsi maraqlı final yarışması ilə başa çatdı***

Yanvarın 15-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Mədəniyyətinin Dostları Fondunun layihəsi və Heydər Əliyev Fondunun dəstəyi ilə üç aydan çox davam edən "Televiziya Muğam Müsabiqəsi-2007"nin final mərhələsi keçirilmişdir.

Bu möhtəşəm musiqi bayramında Azərbaycan muğam sənətinin qorunub saxlanılmasında, təbliğində və inkişaf etdirilməsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri xüsusi vurğulanmışdır. Qeyd olunmuşdur ki, muğam sənəti sahəsində yeni istedadların üzə çıxarılmasında Heydər Əliyev Fondunun böyük rolu olmuşdur. Bundan əvvəlki televiziya muğam müsabiqəsinin iştirakçılarının sədası indi təkcə Azərbaycan səhnəsindən deyil, dünyanın möhtəşəm səhnələrindən, beynəlxalq musiqi məclislərindən gəlir.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Mehriban xanım Əliyevanın "Muğam Müsabiqəsi-2007"-nin iştirakçılarına təbrik məktubunu oxudu. Mehriban xanım Əliyevanın təbriki sürəkli alqışlarla qarşılandı.

Müsabiqənin münsiflər heyətinin üzvləri təqdim olunduqdan sonra söz muğama verildi. Müsabiqənin final mərhələsinə çıxmış 6 gənc ifaçı – Elmәddin İbrahimov, Güllü Muradova, Abgül Mirzəliyev, Ehtiram Hüseynov, Nasir Ətapur və Rəvanə Ərəbova tamaşaçılar və münsiflər heyəti qarşısında bir daha imtahan verdilər. Onların birbirindən maraqlı ifaları tamaşaçıları heyran qoydu.

Sonra münsiflər heyəti adından xalq artisti Əlibaba Məmmədov çıxış edərək bildirdi ki, 160 nəfər arasından seçilmiş 20 nəfərin 3 aydan çox davam edən muğam yarışmasında 6 nəfər finala çıxmışdır. Bu, təkcə musiqi yarışması deyildir. Bu müsabiqə Azərbaycan muğamlarına yeni nəfəslər, yeni ifalar gətirmişdir. Belə bir nəcib layihənin reallaşdırılmasında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xalqımız qarşısındakı xidmətlərini xüsusi qeyd etmək istəyirəm. İncəsənət adamlarına, biz xanəndələrə göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə sənət dostlarım, bu müsabiqənin münsiflər heyəti adından və şəxsən öz adımdan dərin minnətdarlığımızı bildirirəm.

"Muğam Müsabiqəsi-2007"-nin iştirakçılarından 14 nəfərinə diplomlar və 1000 manat pul mükafatı verildi.

Sonra münsiflər heyətinin qərarı ilə müsabiqədə birinci yerə çıxmış Elmәddin İbrahimova və Güllü Muradovaya bürünc mükafat, üzərində Mehriban xanım Əliyevanın və münsiflər heyətinin imzası olan qaval, 10 min manat pul, Heydər Əliyev Fondunun buraxdığı "Qarabağ xanəndələri" musiqi albomu və diplom təqdim olundu. Müsabiqədə ən çox xal topladığına görə Elmәddin İbrahimova Qarabağ xalçası hədiyyə edildi.

İkinci yerə layiq görülmüş Ehtiram Hüseynov və Abgül Mirzəliyevə də bürünc mükafat, üzərində Mehriban xanım Əliyevanın və münsiflər heyətinin imzası olan qaval, "Qarabağ xanəndələri" musiqi albomu, 7 min manat pul mükafatı və diplom verildi.

Üçüncü yerə çıxan Rəvanə Ərəbova və Nasir Ətapur bürünc mükafat, qaval, musiqi albomu, 4 min manat pul və diplom ilə mükafatlandırıldılar.

Möhtəşəm muğam müsabiqəsinin finalı bütün iştirakçıların ifasında dövlət himninin səslənməsi ilə başa çatdı.

*AzərTAc*

# MƏLUM VƏ NAMƏLUM NOBEL MÜKAFATLARI



*Məlum olduğu kimi, beynəlxalq Nobel mükafatı bütün dünyada ən sanballı mükafatlardan biridir. Burada təkcə mükafatın məbləği deyil, həm də onun nüfuzu nəzərə alınır. Bu mükafatlar daha işıqlı şəxsiyyətlərin aşkar olunmasına xidmət edir, laureatların əldə etdikləri elmi, ədəbi, ictimai-siyasi nailiyyətlərin bəşəriyyətə böyük töhfə verməsi ilə nəticələnir. Onlar yeni namizədləri nadir nailiyyətlər əldə etməyə həvəsləndirir ki, bu da son nəticədə dünyada elmi tərəqqiyə təkan vermiş olur.*

*Nobel mükafatı verilməsinin 100 ildən artıq tarixi bizdə elmin inkişafı haqqında tamamlanmış və çox əhəmiyyətli təsəvvür yaradır. Burada fransuz yazıçısı Andre Moruanın sözlərini xatırlamaq yerinə düşür: "Nəsillərin topladıqları bilik və xatirələrin yekunu bizim sivilizasiyamız deməkdir. Onun vətəndaşı olmaq üçün bizə qədər yaşamış nəsillərin fikirləri ilə tanış olmaq vacibdir."*

*Hazırkı məqalədə Nobellər ailəsi tərəfindən təsis olunmuş mükafatlar – kiçik qardaş Alfred (1833-1896) tərəfindən təsis olunmuş beynəlxalq mükafat, eləcə də nisbətən az tanınmış, Lüdviq Nobelin (1831-1888) və onun oğlu Emmanuil Nobelin (1859-1932) şərəfinə təsis olunmuş mükafatlardan söhbət açılır.*

**Beynəlxalq Nobel mükafatı**

Onun banisi – istedadlı ixtiraçı və iş adamı Alfred Nobel öz məşhur vəsiyyətnaməsini üç dəfə tərtib etdikdən (1889, 1893, 1895-ci illər) sonra üçüncünü (27 noyabr 1895-ci il) Stokholmdakı "Enskilda Banken" bankına təqdim etmişdir. O, vəsiyyət etmişdir ki, mükafat millətindən və dinindən asılı olmayaraq, fizika, kimya, fiziologiya, ya təbabət, ədəbiyyat və sülhün möhkəmlənməsi sahəsində çalışan ən layiqli insanlara verilsin.

Alfred Nobel Avropanın ən varlı insanlarından biri idi. Onun varidatı 33 milyon İsveç kronundan artıq (o dövrün qiymətləri ilə 9 milyon ABŞ dolları) idi. Viktor Hüqo onu zarafatla "Avropanın ən varlı avarası" adlandırmışdır. Həqiqətdə də o, 9 yaşında İsveçrədən Rusiyaya getdikdən sonra heç bir yerdə daimi vətəndaş kimi qeydiyyatdan keçməmişdir.

Kapitalının böyük bir hissəsini Bakı neft mədənləri hesabına əldə etmişdir. Nobel ailəsinin arxivinə girişi olan İsveç tarixçisi E. Bergenqrenin fikrinə görə, Alfredin Bakı neft yataqlarından götürdüyü gəlir (mükafat fondunun 12%-ni təşkil edirdi) beynəlxalq mükafatın tezliklə yaranmasına imkan vermişdir. Bunu, uzun illər Nobel fondunun direktoru olmuş H.Stole də təsdiq edirdi.

A.Nobelin vəsiyyətnaməsi elan olunan və Nobel komitəsi işə başlayan kimi "Nobel qardaşları" neft

firması onun hesabına Alfredin Rusiyada olan varidatına bərabər olan məbləgdə (5,23 milyon İsveç kronu), alman banklarında olan Rusiyanın qiymətli kağızları (1,69 milyon İsveç kronu məbləğində) nəzərə alınmamaqla, pul köçürmüşlər. Bu da Alfred Nobel haqqındakı məqalələrdən birinin "Nobel mükafatı neft fontanlarından çıxmışdır" adlandırılmasına əsas vermişdir.

Nobel fondunun rəsmi yaranma tarixi İsveç kralının bu fondu tanıdığı 29 iyun 1900-cü ildən hesablanır. Lakin qurum bundan xeyli əvvəl, yəni 10 dekabr 1896-cı ildə yaranıb. Fondu administrativ şuranın investisiya siyasətinə və mükafatın təqdimatının təşkilinə rəhbərlik edən icraçı administrator idarə edir. Uzun illər bu şərəfli missiyanı Alfredin inanılmış əməkdaşı və həmfikri olan Raqnar Sulman (yaxud Ranyar Şolman) həyata keçirib. Onun vəfatından sonra isə qəyyum və bioqraflardan biri bu işi aparıb.

Mükafatın təqdimatı mərasimi hər il Alfredin ölüm günündə (10 dekabr) həyata keçirilir və qəbul olunmuş ənənəyə görə Stokholm Konsert Evində İsveç kralının laureatlara diplom və qızıl medal verməsi ilə başa çatır.

Dünyada sülhün möhkəmləndirilməsi üzrə mükafat Norveçdə – Oslo şəhər iqamətqahında verilir.

Laureatların siyahısı bir qayda olaraq Alfredin doğum günü – 21 oktyabrda dərc olunur.

İlk Nobel mükafatı laureatları (1901) fizika sahəsində – Almaniyadan Vilhelm K.Rentgen, kimya sahəsində – Hollandiyadan Yakov X.Vant – Qoff, fiziologiya və tibb sahəsində – Almaniyadan Emil A.Fon Bering, ədəbiyyat sahəsində – Fransadan Rene Syulli-Pryudom və sülhün möhkəmləndirilməsi sahəsində – İsveçrədən Anri J.Dünan olmuşlar.

Nobel fondunun kapitalı daimi dövriyyədə olduğuna görə laureatlara verilən mükafatın məbləği də artır. Əgər 1901-ci ildə mükafatın həcmi 150,8 min İsveç kronu təşkil edirdisə, 1994-cü ildə bu rəqəm 7 milyon İsveç kronu (1 milyon ABŞ dolları), 2003-cü ildə isə artıq 10 milyon İsveç kronu (1,3 milyon ABŞ dolları) təşkil edirdi.

**Lüdviq Nobel adına Rusiya (Peterburq) mükafatı**

Alfred Nobelin böyük qardaşları Robert və Lüdviq Rusiya neft sənayesi ilə qırılmaz əlaqələrlə bağlı idilər. 1879-cu ilin may ayında Sankt-Peterburqda təsis olunmuş "Товарищество нефтяного производства братьев Нобель" ("Nobel qardaşları" neft istehsalı firması) ortancıl qardaş Lüdviqin, sonradan isə onun oğlu Emmanuelin dövründə öz əzəmətinin ən uca zirvəsinə qalxmışdır.




"Nobel qardaşları" firmasının 1879-cu ildə ilk kapitalı 3 milyon qızıl rubl təşkil edirdisə, Lüdviq Nobelin ölümünə yaxın dövrdə (31 mart 1888-ci il) 35 milyon qızıl rubldan artıq olduğu bildirilirdi. 1888-ci ildən başlayaraq Emmanuel Nobel firmanın işini 1917-ci ilə kimi uğurla davam etdirdi. 1918-ci ildə ölkədəki siyasi vəziyyətlə əlaqədar o, İsveçə qayıtdı.

XIX əsrin sonu – XX əsrin əvvəllərində "Nobel qardaşları" Rusiya neftinin 90%-nə nəzarət edirdi. 1901-ci ilə kimi dünya neft hasilatının 50%-i Bakıda istehsal olunurdu. Həmin dövrdə "Nobel qardaşları" təkcə Rusiyanın deyil, eləcə də dünyanın neft sənayesində əhəmiyyətli yer tuturdu. Belə ki, 1899-cu ildə firma 93,2 milyon pud neft istehsal etmişdi ki, bu da ümumrusiya neftinin 17,7%-ni, dünyada istehsal olunan neftin isə 8,6%-ni təşkil edirdi.

1888-ci ildə "Nobel qardaşları" Lüdviq Nobel adına mükafat və qızıl medal təsis etmək haqqında qərar qəbul etdi və İmperator Rus Texniki Cəmiyyətinə (İRTO) 6000 rubl kapital ayırdı. (1866-cı ildə Sankt-Peterburqda yaradılmış İRTO Rusiyanın bütün qabaqcıl və elmi-texniki fikirlilərini birləşdirməklə imperiyada texnika və sənayenin inkişafına yardım göstərmək məqsədi daşıyan bir cəmiyyət idi).

Burada L.Nobelin adının əbədiləşdirilməsində İRTO-nun rolunu qeyd etmək lazımdır. Lüdviqin vəfatından 1 il sonra İRTO Lüdviqin xatirəsinə həsr olunmuş təntənəli toplantı (31.03.1889) keçirdi. Mühəndis və alimlər (İ.A.Şessarev, P.A.Bilderlinq, K.T.Lissenko, A.A.Zarubin və b.) öz çıxışlarında Rusiyanın, xüsusən də Bakının neft sənayesinin inkişa-

fında Lüdviqin əvəzolunmaz xidmətlərindən danışdılar. Mühəndis-texnoloq, İRTO-nun texniki təhsil sahəsində daimi komissiyasının üzvü M.N.Tripolitov öz çıxışını bu sözlərlə bitirdi: "Lüdviq Nobel rus olmayıb, ancaq biz onunla fəxr edirik."

Bu toplantıda metallurgiya və neft sənayesi haqqında ən yaxşı əsər, tədqiqat və ya Rusiyada sənayenin inkişafında əhəmiyyətli rol oynayan məşhur ixtira, təkmilləşdirmələrə görə Lüdviq Nobel adına mükafat və üzərində onun profili olan qızıl medalın yaranması haqqında məlumat verildi. 18 yanvar 1891-ci ildə İRTO-nun Şurası mükafat haqqında əsasnaməni təsdiq etdi. "Nobel qardaşları" firmasının İRTO-nun nəzdində təsis etdiyi "Lüdviq Nobel adına mükafat və medal haqqında əsasnamə"də (sənəd № 8) qeyd olunurdu:

- mükafatın verilməsi İRTO Şurasına həvalə olunur;

- mükafatın verilməsinə həsr olunmuş iclas mükafat verilən il 31 marta – mərhum Lüdviqin ölüm gününə təyin olunur;

- Lüdviq Nobel adına mükafatın verilmə vaxtının yaxınlaşması haqqında ildə bir dəfədən az olmayaraq "İRTO-nun qeydləri" və geniş yayılmış paytaxt qəzetlərində, eləcə də "Bakı quberniya xəbərləri"ndə məlumat dərc olunmalıdır.

Birinci müsabiqənin keçirilməsi 1895-ci ilə planlaşdırılırdı. Müsabiqə komissiyasının tərkibinə məşhur kimyaçılar – professor D.İ.Mendeleyev, akademik F.F.Beyeşteyn və professor H.C.Kurnakov daxil edilmişdi. Cəmisi üç mükafat təqdim olunmuşdu ki, onlardan da ikisi beynəlxalq mükafatdan (Alfred mükafatından) əvvəl verilmişdir.

İRTO-nun təsis etdiyi mükafatın məbləği 1200 rubl təşkil edirdi.

İlk Rusiya Nobel mükafatı və ona əlavə olunan qızıl medal 1896-cı ilin mart ayında "Lampaların nəzəri əsasları" tədqiqat işinə görə mühəndis-texnoloq A.İ.Stepanova təqdim edilmişdir.

1898-ci ilin martında verilmiş ikinci mükafatı "Yaşayış evlərinin forsunkadan istifadə etmədən neftlə qızdırılması" adlı işinə görə doktor B.İ.Baskakov almışdır.

1905-ci ilin mayında Lüdviq Nobel adına mükafat sonuncu dəfə "Rusiya neftindən benzol və onun homoloqlarının alınması" işinə görə mühəndis-texnoloq A.N.Nikiforova verilmişdir.

Yüz ildən sonra – 2006-cı ildə Rusiyanın elmi və mühəndis cəmiyyətlərinin Beynəlxalq İttifaqının səyi nəticəsində Lüdviq Nobel adına mükafat və ona əlavə olunan qızıl medal yenidən bərpa olunmuşdur.

**Emmanuil Nobel adına Rusiya (Bakı) mükafatı**

Bakının neft firmaları (Rotşildin "Mazut" və "Şibayev C.M." 15 min kapital qoymuşlar) 1904-cü ildə İRTO-nun Bakı şöbəsinin (BO) nəzdində baba və ata Nobellərin işlərinin layiqli davamçısı olan Emmanuil Nobel (Lüdviq Nobelin oğlu) adına yeni mükafat təsis etdilər. (İRTO-nun Bakı şöbəsi 24 mart 1879-cu ildə yaradılmışdır). Atasının ölümündən sonra "Nobel qardaşları" firmasının başında duran Emmanuil Nobel hər vasitə ilə onun güclənməsinə səy göstərməklə yanaşı, Rudolf Dizelin mühərriklərinin Rusiyada yayılması ilə məşğul olurdu. Xarakterik haldır ki, 1900-cü ildə Nobellərin Sankt-Peterburqdakı zavodu 7 dizel mühərriki buraxırdı, 1904-cü ildə bu rəqəm 50-yə çatdırılmışdı.

Əgər Lüdviqin rəhbərliyi ilə tutumu 15 min pud olan və neft işində yeni eranın başlanğıcını qoyan, dünyada ilk neftboşaldan "Zorastr" gəmisi (1877) hazırlanmışdısa, onun oğlu Emmanuil hər birinin tutumu 50 min pud olan, dünyada ilk sayılan "Vandal" (1903) və "Sarmat" (1904) tanker-teploxodları ilə Rusiya neft donanmasının əsasını qoydu. 1903-cü ildən Xəzər dənizinin sularında "Sormovo" zavodunda tikilmiş, sabit cərəyan generatoru ilə hərəkətə gətirilən üç silindrli dizel quraşdırılmış "Vandal" teploxodu üzməyə başladı.

Emmanuil Nobelin dövründə Rusiyada neftboşaldan gəmilər üçün dizel mühərriklərinin kütləvi istehsalı təşkil olunmuş və Rusiya dünyanın dizel nəhənginə çevrilmişdi. 1913-cü ildə dünyada olan 80 teploxodun 70-i Rusiyanın mülkiyyəti idi və bunda da Emmanuilin böyük xidmətləri olmuşdur.

Emmanuil adına mükafatı ildə 1 dəfə neft sahəsində ən yaxşı işlərə və ya ixtiralara görə vermək nəzərdə tutulurdu. İRTO-nun Bakı şöbəsi tərəfindən hər il təyin olunan mükafatın məbləği 1000 rubl təşkil edirdi. Mükafatın verilməsinin əsas müddəaları bunlar idi:

- mükafata iddiaçılar həm rus, həm də xarici vətəndaşlar ola bilərlər;

- iddiaçılar öz əsərlərini rus dilində, mükafatın verilməsinə üç ay qalmışdan, yəni həmin ildə 25 fevraldan gec olmadan təqdim etməlidirlər;

- ümumi nəticələrin elan olunması 25 maya, yəni "Nobel qardaşları" firmasının yarandığı günə təyin edilir;

- mükafat almağa təqdim olunan işlərin devizləri olmalı və onunla birlikdə təqdim olunan zərfdə müəllifin adı ancaq mükafatın hansı işə veriləcəyindən sonra bilinməlidir;

- təqdimatın nəticələri "Nobel qardaşları" firması ilə yanaşı bu fondun yaranmasında iştirak edən digər firmalara da elan edilir. Emmanuil Nobel adına mükafat 1909, 1911 və 1914-cü illərdə – üç dəfə təqdim olunub;

İlk Emmanuil mükafatını 1909-cu İRTO BO-nun kimya laboratoriyasının müdiri, Bakı neft-kimyaçısı V.F.Qerr "Neftin yüngül fraksiyalarının azot turşusu ilə oksidləşməsi yolu ilə ikiəsaslı turşuların alınması" işinə görə almışdır. Professor Viktor Qerr (1875-1940) Sovet dövründə məşhur neft-kimyaçı alim Y.Q.Məmmədəliyevlə birlikdə işləmişdir.

İkinci Emmanuil mükafatını Moskva Universitetinin professoru A.M.Nastyukov və onun assistenti K.L.Malyarov 1911-ci ildə "Doymamış neftləri formalinlə kondensasiya etməklə alınan maye məhsulların xassələri haqqında" işinə görə almışlar.

Üçüncü, axırıncı Emmanuil mükafatını 1914-cü ildə "Əl ilə idarə olunan dartay barabanı və jelonkanın dartayın şkivinə doğru dartılmasına qarşı alət" adlı işinə görə bakılı dag-mədən mühəndisi S.Q.İsakov almışdır.

**Nobel mükafatları arasında əlaqə**

İndi isə Nobel mükafatları arasında əlaqələrə aydınlıq gətirək.

Fikrimizcə, ixtiraçı, dünya miqyaslı iş adamı, linqvist və filosof kimi tanınmış Alfred Nobel Rusiyanın Sankt-Peterburq şəhərində onun qardaşı Lüdviqin adına mükafatın təsis olunmasından xəbərsiz ola bilməzdi. Qeyd etdiyimiz kimi, Lüdviq Nobel adına mükafatın təsis olunması rəsmən 1889-cu il 31 mart-da elan olunmuşdur.

Artıq "dinamit kralı" kimi tanınmış Alfred qardaşları Robert və Lüdviqin xahişi ilə Sankt-Peterburq şəhərinə gələrək firmanın işlərində onlara həm mənəvi, həm də maddi köməklik göstərirdi. Məsələn, o, tanınmış Qərb banklarının kapitallarını "Nobel qardaşları" firmasının maddi bazasını genişləndirmək üçün Bakının neft sənayesinə cəlb etməyə çalışaraq fəaliyyətlərinin dünya miqyasında tanınmasına nail olmuşdur. Amma qardaşlarının dəfələrlə, təkidlə dəvət etmələrinə baxmayaraq, Alfred Bakıda olmamışdır.

Sonralar Lüdviq Alfredə (Parisə) yazırdı: "...Sən bizə çox böyük köməklik göstərmiş olacaqsan və mən əminəm, insanlar nə vaxtsa anlayacaqlar ki, "Nobel qardaşları dostluğu" – tək Lüdviq Nobel demək deyil".

Beləliklə, ola bilsin ki, Lüdviq mükafatının mövcud olması Alfredin mükafat haqqında məşhur vəsiyyətnaməsinin məzmununa təsir etmişdir (başqa subyektiv və obyektiv səbəblərlə yanaşı). Hər halda Lüdviq adına mükafat məşhur Alfred mükafatından əvvəl təsis olunub və təqdim edilib.

Xarakterik haldır ki, Nobel ailəsinin bütün mükafatları ("Alfred" adına, "Lüdviq" adına və "Emmanuil" adına) elmi ictimayyətin cəmiyyətin rifahı üçün daha çox tərəqqi gözlədiyi (xüsusən son 2 mükafat) sahələrə verilib və bu mükafatlarda Bakı neft mədənlərindən əldə olunan kapitalın xüsusi rolu olub.

Beləliklə, 1888-1891-ci illərdə Rusiyada Lüdviq Nobel adına mükafatın təsis olunması Alfred Nobeli 1895-ci ildə elm tarixində Nobellər ailəsinin ölməzliyini, elmin inkişafında şübhəsiz böyük xidmətləri olduğunu sübut edən və İsveç, Norveç, eləcə də bütövlükdə Skandinaviya ölkələrinin mədəniyyətinin daha dərindən dərk olunmasında böyük xidmətləri olan məşhur vəsiyyətnaməsini yazmağa sövq etmişdir.

Azərbaycan paytaxtı Bakı bu gün 100 il əvvəl – məlum və naməlum Nobel mükafatlarının təsis olunduğu dövrdəki kimi, dünya neft biznesinin mərkəzlərindən birinə çevrilmişdir. Regionda həyata keçirilən ümumdünya əhəmiyyətli beynəlxalq layihələr – Bakı – Tbilisi – Ceyhan və Bakı –Tbilisi – Ərzurum Azərbaycanda neft biznesinin sürətli inkişafından və respublikamızın dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında rolunun artmasından xəbər verir. Eyni zamanda ölkəmizin iqtisadi qüdrəti yüksəlir, neft sahəsi ilə yanaşı qeyri-neft sahələri də sürətlə inkişaf edir. Hazırda Azərbaycan dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkələrindən biridir. Müşahidə olunan bu inkişafı, ümumiyyətlə, bütün dünyada neft amilinin aparıcı rolunu nəzərə alaraq, bu gün respublikamızda xüsusi fondun yaradılmasına və neft biznesinin və elminin inkişafında görkəmli xidmətlərə görə verilən beynəlxalq mükafatın təsis olunmasına böyük ehtiyac var. Qeyd olunduğu kimi, Rusiyada artıq Lüdviq Nobel adına Rusiya (Peterburq) mükafatı bərpa olunmuşdur və arzu olunardı ki, Azərbaycanda da Bakı Emmanuil Nobel mükafatı bərpa olunsun və neft sənayesinin inkişafında böyük xidmətləri olmuş alim, mühəndis və neftçilərə təqdim olunsun.

***İbrahim QULİYEV,***
*AMEA-nın Geologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, "Azərbaycanın neft təsərrüfatı" jurnalının baş redaktoru, akademik,*

***Mir-Yusif Mir-BABAYEV,***
*Azərbaycan Texniki Universitetinin professoru, kimya elmləri doktoru*

# Nobel mükafatı laureatlarının sayı üzrə ölkələrin siyahısı

| Ölkə | Fizika | Kimya | Fiziologiya və tibb | Ədəbiyyat | İqtisadiyyat | 1901-ci ildən 2007-ci ilədək ümumi sayı |
|---|---|---|---|---|---|---|
| ABŞ | 89 | 57 | 97 | 11 | 41 | 295 |
| Böyük Britaniya | 21 | 26 | 29 | 11 | 7 | 94 |
| Almaniya | 23 | 28 | 16 | 8 | 1 | 76 |
| Fransa | 13 | 8 | 9 | 13 | 2 | 45 |
| İsveç | 4 | 4 | 7 | 7 | 2 | 24 |
| SSRİ və Rusiya | 9 | 1 | 1 | 5 | 1 | 17 |
| İtaliya | 3 | 1 | 4 | 6 | 1 | 15 |
| Niderland | 8 | 3 | 2 | 0 | 2 | 15 |
| İsveçrə | 2 | 5 | 6 | 2 | 0 | 15 |
| Kanada | 2 | 5 | 2 | 0 | 3 | 12 |
| Danimarka | 3 | 1 | 4 | 3 | 0 | 11 |
| Yaponiya | 4 | 4 | 1 | 2 | 0 | 11 |
| Avstraliya | 0 | 1 | 5 | 1 | 0 | 7 |
| Avstriya | 2 | 1 | 3 | 0 | 1 | 7 |
| Norveç | 0 | 1 | 0 | 3 | 3 | 7 |
| Polşa | 2 | 1 | 0 | 4 | 0 | 7 |
| İspaniya | 0 | 0 | 1 | 5 | 0 | 6 |
| Belçika | 0 | 1 | 3 | 1 | 0 | 5 |
| İsrail | 0 | 2 | 0 | 1 | 2 | 5 |
| İrlandiya | 1 | 0 | 0 | 4 | 0 | 5 |
| Argentina | 0 | 1 | 2 | 0 | 0 | 3 |
| Macarıstan | 0 | 1 | 1 | 1 | 0 | 3 |
| Hindistan | 1 | 0 | 0 | 1 | 1 | 3 |
| CAR | 0 | 1 | 0 | 2 | 0 | 3 |
| Yunanıstan | 0 | 0 | 0 | 2 | 0 | 2 |
| Misir | 0 | 1 | 0 | 1 | 0 | 2 |
| Meksika | 0 | 1 | 0 | 1 | 0 | 2 |
| Portuqaliya | 0 | 0 | 1 | 1 | 0 | 2 |
| Finlandiya | 0 | 1 | 0 | 1 | 0 | 2 |
| Çexoslovakiya | 0 | 1 | 0 | 1 | 0 | 2 |
| Çili | 0 | 0 | 0 | 2 | 0 | 2 |
| Yuqoslaviya | 0 | 1 | 0 | 1 | 0 | 2 |
| Bolqarıstan | 0 | 0 | 0 | 1 | 0 | 1 |
| Qvatemala | 0 | 0 | 0 | 1 | 0 | 1 |
| İslandiya | 0 | 0 | 0 | 1 | 0 | 1 |
| Kolumbiya | 0 | 0 | 0 | 1 | 0 | 1 |
| Lüksemburq | 0 | 0 | 1 | 0 | 0 | 1 |
| Nigeriya | 0 | 0 | 0 | 1 | 0 | 1 |
| Pakistan | 1 | 0 | 0 | 0 | 0 | 1 |
| Rumıniya | 0 | 0 | 1 | 0 | 0 | 1 |
| Türkiyə | 0 | 0 | 0 | 1 | 0 | 1 |

# «KİTABİ-DƏDƏ QORQUD»DAKI ADSIZ XANIMLARDAN BİRİ

**Bəhlul ABDULLA**
*Əməkdar elm xadimi, professor*

Azərbaycan ailəsində kişinin – ərin öz xanımına müraciəti çox-çox hallarda adıyla olmayıb. O, xanımından söz düşəndə, bir qayda olaraq, «uşaqların anası», «evin adamı», onun atasının adı ilə, «Əmənin qızı», «Şəmsəddinin qızı», oğlunun adı ilə «Daşdəmirin anası», «Əhmədin anası», əgər qohumlardan evlənibsə «əmiqızı», «dayıqızı», «xalaqızı», «bibiqızı», bəzən də xanımının atasının mənsubiyyəti, sənəti ilə «xan qızı», «bəy qızı», «dəmirçi qızı», «keçəçi qızı», «qalayçı qızı», «odunçu qızı» şəklində söyləyir, müraciət edir.

Kişinin – ərin xanımını başqalarının, eləcə də ailədəkilərin, xüsusən ata-anasının yanında öz adıyla deməməsi bilavasitə ədəb-ərkanla bağlı məsələdir. Və bu sayaq deyimlərin hansı zamanlardan başlaması, haradan qaynaqlanmasını öyrənmək məsələsi bizi yenə də «Kitabi-Dədə Qorqud»a (KDQ yazacağıq) sarı yönəldir.

Əvvəla, deyək ki, KDQ-də adlı-adsız xanımlar az deyil. Abidədəki adlı xanımlar, əsasən, bunlardır: Ayişə, Fatimə, Zəlihə, Zübeydə, Ayna Mələk, Qutlu Mələk, Boyu uzun Burla Xatun, Banuçiçək, Selcan xatun, Boğazca Fatma, Qısırca Yengə.

Eposdakı xidmətçi, dayə, qaravaşları hesaba almasaq, burada sözü gedən adsız xanımlar bunlardır: Dirsə xanın xanımı, Salur Qazanın anası və qardaşı oğlu Qara Budağa ərliyə – halallığa verdiyi qızı (Bəzi hallarda KDQ-də qan qohumluğu ilə evlənmənin olmaması iddia edilir. Qazan xanın qızının öz əmisi oğlu ilə evlənməsi faktı iddiaların yalan olduğunu sübut edir), Baybörə bəyin xanımı və yeddi qızı, Dəli Domrulun anası və xanımı, Qanlı Qoca oğlunun xanımı, Bəkilin xanımı, Uşun Qocanın xanımı və oğlu Səgrək üçün gətirdiyi gəlini, Bayburt hasarı bəyinin Bamsı Beyrəyi sevən qızı, Tumanın qalası bəyinin xanımı və qızı, Təpəgözün əlində şəhid olan Aruz oğlu Qıyan Selcikin xanımı və b.

Adsız xanımlar sırasında adını birinci yazdığımız Dirsə xanın xanımı KDQ-dəki digər adsız xanımların ən fəalıdır və o, xan qızıdır. Onun doğrudan-doğruya xan qızı olmasına iştirak etdiyi birinci boyda işarələr də vardır. Övladsızlıq səbəbindən qınanılan Dirsə xan bu «qara eyib»in özündənmi, xanımındanmı olduğunu bilmək istəyir. O, xanımına məhz bu məsələ ilə bağlı qəzəbli müraciətində – soylamada iki dəfə deyir: ***«Xan qızı,*** *(kursiv burada və sonrakılarda – B.A.)* yerimdən durayımmı!?», ***«Xan qızı,*** səbəb nədir, degil mana» (4, 39-40). Elə bu xanım da ərinə – Dirsə xana müraciətində özünün xan qızı olmasını ***«Xan babamın*** göygüsü» (kürəkəni), ***«Xan babamın*** qatına mən varayım» şəklində bildirir.

Düzdür, boyda bu xanımın hansı xanın qızı olmasını öyrənə bilmirik. Amma bunu dəqiq bilirik ki, Dirsə xanla xanımı bir qonşuluqda yaşayıblar, uşaqlıqdan bir-birlərini yaxşı-yaxşı tanıyıblar. Bunu Dirsə xanın bundan sonra ***Xan qızı*** adlandıracağımız xanımı bizə belə xəbər verir:

*Atam-anam verdiyi,*
*Göz açuban gördüyüm.*
*Könül verib sevdiyim,*
*A Dirsə xan (4, 41-42).*

Xan qızı adlandırdığımız bu xanım «qara qıyma gözlü»dür. O, «qıyıq göz» deyil. Belə ki, göz qapaqları bir-birinə yaxın, kipriklərı kipləşmiş görünən gözə «qıyma göz» deyilir *(2, 1c., 510)*. Gözlərinin ucu dar, qıyılmış göz isə «qıyıq göz» adlanır *(2, 1c., 510)*. Sibir və Orta Asiya, eləcə də Qazaxıstan türkləri «qıyma göz» yox, «qıyıq göz»dürlər. Elə bu faktın özü KDQ-dəki türklərin Azərbaycan türkü olduğunu sübut edir.

Xan qızının, ümumiyyətlə, xarici görünüşü Dirsə xanın bir soylamasında belə nəzərə çatdırılır:

*...Evdən çıxıb yeriyəndə səlvi boylum!*
*Topuğunda sarmaşanda qara saçlım,*
*Qurulu yaya bənzər çatma qaşlum!*
*Qoşa badam sığmayan dar ağızlum (4, 39).*

Sözsüz ki, bu deyilənlər Xan qızının hamının müşahidə edə biləcəyi zahiri görünüşüdür. Boyda bu xanımın xarakter cizgilərini təyin etməyə imkan verən əlamətlər də qabarıqdır. Hansıdır bu səciyyəvi cızgilər?

Birincisi, Xan qızı ağıllıdır, məsləhət verəndir.

Övladı olmadığı üçün Bayındır xanın məclisində qara otaqda oturdulub, altına qara keçə döşəyib, yeməyə qara qoyun yəxnisi verməklə özünü təhqir olunmuş sayan Dirsə xan evə dönüncə bütün qəzəbini xanımına tuşlayır. Onu bu işdə günahkar bilir, hətta ölümlə hədələyir. Xan qızı ərinin tələşını başa düşür. O, özünün də üzüldüyünü, qəhər içində boğulduğunu qıyma gözlərindən axıtdığı qan-yaşla nümayiş etdirir. Bununla belə, o, səbirlə, təmkinlə Dirsə xana izah edir ki, qəzəblə, acı-acı sözlərlə iş aşmaz. Bunun üçün Tanrının inayətinə sığınmaq gərəkdir. Ərinə məsləhət görür ki, acı aclıqdan, borclunu bordan qurtarsın, çılpağa don bağışlasın. Olsun ki, bələlərinin duası ilə Tanrı onları bu üzüntüdən üzər. Doğrudan da Dirsə xan xanımının məsləhətlərinə əməl etməklə istəklərinə çatırlar. Onların oğlu olur.

İkincisi, Xan qızının səciyyəvi xüsusiyyətlərini aşkarlayan yönlərdən biri də onun Oğuz etiket qaydalarını mükəmməl bilməsi və bunlara əməl etməsidir. Ötən araşdırmalarımızda Oğuzların ovçuluq etiket tipli ənənələrindən az-çox danışmışıq *(1, 83-90)*. Və burada bildirmişik ki, Oğuzlarda ilk ov şərəfinə həm də seçilən ölçüdə mərasimi düzənlənir. Mal-heyvan kəsilib qonaqlıq verilir. Dirsə xan da Buğacı özü ilə ilk kərə ova apararkən Xan qızı «Oğlancığımın ilk avıdır deyü, atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı, Qanlı Oğuz bəglərin toylayayım» - deyir *(4, 41)*.

Üçüncüsü, Xan qızı həssas qəlbli anadır. Ümumi şəkildə analara məxsus əyanolma hissi onda da çox güclü olaraq özünü göstərir. Namərd yoldaşlarının hiyləsindən xəbərsiz olan Dirsə xan onların fitvası ilə oğlu Buğacı ovda ölümcül yaralayır. Evə döndükləri zaman qayıdanların arasında oğlunu görməyən ana təşviş keçirir. Namərdlərin «oğlun sağdır-əsəndir, avdadır: bu gün-yarın qanda isə, gəlür» -demələrinə inanmır. O, burada bir fəlakətin olmasını «Çıqsun bənim kor gözüm, a Dirsə xan, yaman səgrər // Kəsilsin oğlan əmən süd damarım yaman sızlar // Sarı yılan soqmadan ağca tənim qalqub şişər» *(4, 42)* sözləri ilə bəyan edir.

Dördüncüsü, biz bilirik ki, Oğuz xanımları döyüş-vuruşda ər – alplardan heç də geri qalmırlar. Hünər, sücaətdə, düşmənin əhdini kəsməkdə, bir çox hallarda, hətta ərlərdən də üstün görünürlər. Boyu uzun Burla xatunun, Selcan xatunun vuruşlarında bu qabarıqlıq daha aydın bəlliləşir. Deyəsən, bu yön elə eynən Xan qızına da aiddir. O, oğlunun ovdan qayıtmadığını gördükdə zənn edir ki, azğın dinli kafirlərin əlinə keçib. Odur ki, Dirsə xana deyir:

*Xan babamın qatına bən varayım,*
*Ağır xəzinə, bol ləşkər alayım.*
*Azğun dinli kafirə bən varayım.*
*Paralanıb Qazılıq atından enməyincə,*
*Yenümlə alca qanım silməyincə,*
*Qol-bud olub yer üstünə düşməyincə*
*Yalnız oğul yollarından dönməyəyim! (4,42)*

Beşincisi, Xan qızı tədbirli olduğu qədər də ehtiyatlıdır, uzaqgörəndir. Oğlunu Qazılıq dağında ağır yaralanmış halda tapdıqda və bunun elə Dirsə xanın öz işi olduğunu bildikdə şübhələnir. Başa düşür ki, burada namərd hiyləsi vardır. Bu üzdən də tədbirli hərəkət edir. Oğlunu evə gətirməsini, müalicə etdirməsini hamıdan gizli saxlayır. Amma necə olursa, oğlanın ölümünə çalışan namərdlər bundan xəbər tuturlar. Hiylələrinin açılacağını duyan bu yaramazlar indi də Dirsə xanın özünü aradan götürməyi qərarlaşdırırlar.

Həmişə göz-qulaqda olan Xan qızı namərdlərin bu fitnəsindən də xəbər tutur. Odur ki, həqiqətin nə yerdə olduğunu Buğaca başa salıb deyir:

*Görürmisən, ay oğul, nələr oldı?!*
*Sarp qayalar oynanmadı, yer obrıldı*
*Eldə yağı yoq ikən sənin babanın üstünə yağı gəldi*
*Ol qırq namərd – babanın yoldaşları babanı tutdular.*
*Ağ əllərin ardına bağladılar.*
*Qıl sicim ağ boynına taqdılar.*
*Kəndülər atlu, babanı yayaq yüritdilər.*
*Alubanı qalın kafir ellərinə yönəldilər.*
*Xanım oğul, qalqubanı yerindən uru durğil!*
*Qırq yigidin boyuna alğıl!*
*Babaın ol qırq namərddən qurtarğıl.*
*Yüri, oğul! Baban sana qıydısa, sən babana qıymağıl (4, 43)*

Sözsüz, Buğac anasının nəsihətinə əməl edib atasını darlıqdan qurtarır, namərdləri cəzalandırır.

Bura kimi dediklərimizlə Xan qızının məxsusi cizgiləri barədə təsəvvür yarada bildiyimiz zənnindəyik. Amma bizi əsas düşündürən bu xanımın mifoloji məqamlarla hansı ölçüdə bağlı olması məsələsidir.

Boyda Xan qızı ilə ilk tanışlığımız əri Dirsə xanın Bayındır xanın məclisindən övladsızlığa görə təhqir olunub geri qayıtması və ona qəzəbli-qəzəbli acı sözlər deməsi, ölumlə hədələməsi ilə başlayır. Xan qızı ərinə nicat üçün digər xeyrxah əməllərlə yanaşı, həm də atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirməyi, ulusa qonaqlıq verməyi təklif edir. Elə oğlunun ilk ovu mərasimi şərəfinə də Xan qızı bu sayda kəsilməli kəsdirir. Nəhayət, oğlunu yaralı tapan anaya bəlli olur ki, o ölməyəcək. Çünki Xızır yalavac oğlanın yarasına üç kərə sığal çəkərək bildirib ki, bu yaraya məlhəm ana südü ilə dağ çiçəyidir. Bunu bilən ana çevrəsindəki qızlara dağ çiçəyi toplatdırır.

İndi süd gərəkdir. Boyda deyilir ki, Xan qızı döşünü «...bir sıqdı, südü gəlmədi, iki sıqdı, südü gəlmədi, üçüncüdə kəndüyə zərb eylədi, qatı doldı, sıqdı südlə qan qarışıq gəldi» *(4, 43)*.

Sual olunur: bu sadalananlar nə üçün üç sayı ilə bağlı söylənilir? Bunu bilmək üçün üç sayının mifoloji semantik simvolikasına müraciət etmək gərək gəlir. Əvvəla, çox-çox qədim zamanlarda ayrı-ayrı boy, qəbilə, tayfa birləşmələrinin məxsusi sayları olub və bu saylar məhz elə həmin zamanın irəliləyişi icərisində simvollaşa-simvollaşa arxaik ənənə qəlibində «sevimli», «uğurlu», hətta «sakramental» bilinməyə başlamışdır. Belə sayların sırasında üç sayı da seçilən olaraq dəyərləndirilmişdir. Çünki əksər xalqların say sistemi kompleksində bu üç sayı miqdar, yaxud sıra bildirməkdən savayı, kəhkəşandan başlamış yerin üst və alt qatı da daxil olmaqla bütövlükdə kainatın şaquli durumunu ehtiva etmişdir. Başqa sözlə, yaradılış miflərinin çağımıza gəlib çatmış örnəklərindən bəlli olur ki, Tanrı «Ol!» əmri ilə göyü – səmanı – kosmosu (makro), yerüstü-yeraltı aləmi (mikro) – bütövlükdə kainatı xəlq eləyir. Bununla da, yəni üç sayının verdiyi təsəvvürlə mifoloji kainat modeli yaranır. Daha dəqiqi, üç sayı kainatın simvolik obrazına çevrilir.

Məişət-ailə çevrəsində və bu çevrə mühitində insanlar çox-çox nəsnə və hadisələrlə bağlı üzə çıxan durumu da bilavasitə üç sayı ilə ilgili düşünməyə, zənn etməyə başlayırlar. Onlar bu saya qurtarma, tamamlanma, sonayetmə aktı kimi baxırlar. Bunun belə olması sarıdan qaynaqlarda da xəbərlər vardır. Misal üçün, Aristotelin bildirdiyinə görə, əski yunanlarda üç sayı «qurtardı», «tamamlandı» anlamında imiş *(6,72)*. Bu, özünü elə bizim atalar sözlərində də göstərməkdədir: «Atalar üçəcən deyib», «Biz də deyək üç olsun, düşmən ömrü puç olsun» və s.

KDQ-də də sıx-sıx tuş gəldiyimiz, eləcə də Xan qızının üç sayına müraciəti, yəni həmin sayda işə, əmələ rəvac verməsi bu sayın söylədiyimiz mənası əhatəsindədir.

Buğacın ovdan qayıtmamasından üzülən, həyəcan keçirən Xan qızı ərinə müraciətlə deyir:

*Çıqsın bənim kor gözüm, a Dirsə xan, yaman səgrər.*
*Kəsilsün oglan əmən süd damarım yaman sızlar.*
*Sarı yılan soqmadan agca tənim qalqib şişər*
*(4,42).*

Dövri-qədimdən azərbaycanlılar gözün səyriməsinə bəd, uğursuzluq aktı kimi baxmışlar. Hətta inama görə, sağ gözün səyriməsi uğurlu sayılmış və bu, adətən, «sevinərsən», «yaxın adamınla görüşərsən», «xoş xəbər eşidərsən» kimi ümidverici deyimlərlə yozulmuşdur. Sol gözün səyriməsi isə bədbəxtlik, uğursuzluq bildirən zənn olunmuşdur. Bu fəlakətdən yaxa qurtarmaq üçün uğur simvolu, günəş rəmzi sayılan və elə indinin özündə də məişətimizdə davam etməkdə olan qırmızı rəngli sap, qırmızı rəngli parça qırıntısı səyriyən gözün üst qapağına yapışdırılır. Bununla da bəlanın sovuşacağına inanılır. Dəyərlidir ki, sözün təsiredici gücünə inam artdıqca bu ayini icra etməklə bərabər, səyriyən gözə sağ əllə üç kərə sığal da çəkilə-çəkilə:

*Xeyirə atırsan, at!*
*Şərə atırsan, yat!* –

şəklində ovsun nəğməsi söylənilir.

Gözün səyriməsi zamanı qırmızı rəngli nəsnələrdən istifadəni, eynən bizdə olduğu kimi, türk dilli Qaçinlərin məişətində də görürük. Ümumi şəkildə qırmızı rəngi qutsal sayan bu xalqın etiqadına görə, göz ruhunun özü də, geyimi də elə qırmızı rəngdədir. Səyriyən gözə qırmızı rəngli nəsnələrin yapışdırılması da bu ruhun simvolunu yaratmaq, ona sığınmaq deməkdir. Və inanılıb ki, göz ruhu törənə bəlacək fəlakəti, bəlanı qovub uzaqlaşdıracaq.

Deyilənlərdən bu qənaətdəyik ki, gözün səyriməsinin fəlakətə dəlalət etməsi Oğuzlara da bəlli imiş. Odur ki, Dirsə xan deməsə belə, Xan qızı gözünün səyriməsindən oğlunun darlıqda olduğunu yəqinləşdirir. Və biz bilirik ki, bu, həyiqətən də belədir.

Xan qızı soylamada Dirsə xana «Kəsilsin oğlan əmən süd damarım yaman sızlar» da deyir. Bu deyimə də bir az geniş çevrədən yanaşmağı gərəkli bilirik. Hamımıza bəllidir ki, ana südü həmişə müqəddəs sayılmış, ona and içilmiş, ondan keçilməmişdir. Nağıl və dastanlarımızda hətta divlər, pərilər belə, analarının südünə and içdikdən sonra bağladıqları şərti pozmamış, verdikləri vədi can-başla yerinə yetirmişlər. Real həyatda da kimsənin çətin, gərəkli bir işin öhdəsindən bacarıqla gəlməsi müqabilində ona çox vaxt «anan südü sənə halal olsun» – alqışı söylənilir. Bəzən ana naxələfliyinə, yaramaz əməlinə görə övladına «südüm sənə haram olsun», «döşümdən əmdiyin süd burnundan gəlsin» və s. bu şəkildə qarğış da deyir. Bəs bu yön hansı görüşlərlə ilgilidir? Etiqada görə, insanın anasından əmdiyi süd yaşayışı boyu onun canında qalır. Nəhayət, o, dünyasını dəyişib dəfn olunduğu günün gecəsi qəbir onu canındakı həmin südü burnundan gələnə qədər sıxır. Deməli, xatırlatdığımız görüş də məhz bu deyilənlə bağlılıqda öz təsdiqini tapır.

Bununla belə, mifoloji inama görə, nə qədər ağır, dəhşətli, qorxunc deyilsə də, övladına qarşı ananın qarğışı təsirli olmur. Çünki övladın canındakı ananın südü sahibinin söylədiyi qarğışın qarşısını alır.

Sözsüz ki, bu deyilənlərin haqqında söz açdığımız məsələyə az-çox dəxli olsa da, «süd damarın sızlaması» mətləbini özündə gərəyincə ehtva etmir. Bəs onda bu məsələnin kökündə duran nədir?

Sualın cavabı belədir: südəmər körpəsindən uzaqda olan, yaxud onu yatmış qoyub müəyyn bir iş arxasınca getmiş ana uşağının oyanıb ağlamasını, narahatlığını məhz döşlərinin sızıltısından hiss edir. Hətta bu hissiyatın doğurduğu həyəcandan onun döşlərindən südü sızmağa başlayır. Deməli, Buğacın da qəza içində olmasını anası süd damarının sızıltısından hiss edir, duyur.

Yenə də sual oluna bilər ki, Buğac ov ovlayan, quş-quşlayan bir igiddir. Südəmər körpə deyil. Belə halda onun anasının döşündə südün olmasından necə söz açmaq olar? Sual yerindədir. Amma gəlin arxada xatırlatdığımız bir məsələni təkrar yada salaq. Buğacın yarası üçün ana südünün də zəruriliyini boyun özündən gətirdiyimiz misala əsasən demişdik. Və bunu da bildirmişdik ki, bu süd Xan qızı döşünü üç kərə sıxmaqla alınır. Bu, sualın bir cavabı. Bundan savayı, övladının yaşından asılı olmayaraq, onun çətinliyə, çıxılmazlığa düşməsini, südü oldu, olmadı belə, ana südü qurumuş döşünün sızlamasından hiss edir, duyur. Bunun doğruluğunu yenə də elə KDQ-dən öyrənirik. Abidənin dördüncü boyunda atası Salur Qazanla ova gedən Uruz kafirlərə əsir düşür. Atanın bundan xəbəri olmur. Oğlunun evə döndüyünü zənn edir. Boyu uzun Burla xatun oğlunu – Uruzu ovdan qayıdanlarla görmədikdə o da elə Xan qızının keçirdiyi hisslərin ağuşuna düşür. Və oğlunun mütləq fəlakətə tuş olmasını südsüz, qurumuş döşünün sızlamasından bilir. Boyda o deyir: ***«Qurumuşca köksümdə*** südüm oynar» *(4, 69)*.

Beləliklə, Boyu uzun Burla xatunun dilindən eşitdiyimiz bu sözləri Xan qızına da aid etməklə məsələ ilə bağlı söhbətimizi tamamlayırıq.

Oğlu ovdan qayıtmayan Xan qızı narahatlığını ərinə «Sarı yılan soqmadan ağca tənim qalqub şişər» sözləri ilə də bəyan etdiyini bildirmişdik. Bu deyimin təkrarına Bural xatunun elə oğlunun yoxluğu sarıdan Salur Qazana dedikləri sırasında da tuş oluruq *(4, 69)*.

Əgər ilanlar fəsiləsinə daxil olan əjdahanı hesaba almasaq, KDQ-də iki ilanın adı çəkilir: sarı ilan və ala ilan. Soruşula bilər ki, adlarını xatırlatdığımız xanımlar ərlərinə müraciətlərində nə üçün ala ilan yox, sarı ilan deyirlər? Düşünürük ki, bu bilavasitə həmin ilanlarının hamısının daha qorxunc, daha zəhərli olması ilə bağlıdır. Və məsələnin bu istiqaməti böyük Qorqudşünas O.Ş.Gökyayın da diqqətini çəkmişdir *(3, CDDI)*. Qaynaqlardan da öyrənirik ki, ala ilan ilanların ən qorxulu, təhlükəli olanıdır. Zəhəri o qədər təsirlidir ki, çaldığı kimsənin xilası qeyri-mümkündür. Bunun belə olmasına KDQ-də də işarə vardır. «Dəli Domrul» boyunda ölümə məhkum olmuş Dəli Domrul canı əvəzinə can verməklə əcəldən qurtara bilər. O, ata-anasına müraciət etsə də, istəyinə nail ola bilmir. Ölümdən xilassızlığını görən Dəli Domrul halallaşmaq üçün xanımının yanına gəlib məsələni ona açır. Vəsiyyətini söyləyir. Ondan sonra könlü tutacağı adama ərə getməsini də məsləhət görür. Xanımı ərinin vəsiyyətinə cavab olaraq bunu da deyir ki:

*Səndən sonra bir yigidi*
*Sevib varsam, bilə yatsam,*
*Ala yılan olub, məni soqsun! (4, 78)*

Düzdür, «İncə bal körüyü rəngində, qəhvə rənginə yaxın sarı, kirli sarı və qızıla yaxın sarı rəngdə olan» *(3, CDDI)* sarı ilan da təhlükəlidir. Amma onun zəhəri ala ilanкı qədər təsirli deyil. Olsun ki, elə bu üzdən də xanımlar öz müraciətlərində məhz bu ilanın adını deyirlər.

Boydan bəlli olur ki, övladsızlıq narahatlığını Xan qızı ərindən az keçirməmişdir. O, özü bunu belə etiraf edir:

*Quru-quru çaylara suçu saldım.*
*Qara donlu dərvişlərə nəzirlər verdim.*
*Ac görsəm doyurdum, yalıncaq görsəm donatdım.*
*Dəprə kibi ət yıgdım, göl kibi qımız sağırdım.*
*Dələk ilə bir oğul güclə buldum (4, 42).*

Bu soylamada bizi düşündürən «Quru-quru çaylara suçu saldım» deyimidir. Əlbəttə, bu deyimi Burla xatunun da dilindən «Quru-quru çaylara su saldım» *(4, 69)* şəklində eşitməsəydik, yaxud Dəli Domrulun məhz «quru çay» üstündən körpü salması əhvalatı olmasaydı, bəlkə də bu barədə söhbət açmaq eşqinə düşməzdik. Amma deyək ki, bu söhbətin məcrası olduqca genişdir və biz ondan «Dəli Domrul «Kitabi-Dədə Qorqud»da və Qorqudşünaslıqda» *(2002)* kitabımızda qədərincə danışmışıq. Həqiqət olan budur ki, «quru-quru», «quru», «su», «suçu», «keçid», «körpü» sözləri çaya, suya aidlikdə «quduz», «coşğun», «qəzəbli», anlamındadır. M.Kaşqarlının «Divani-lüğət-it türk», Y.Balasaqunlunun «Qutadqu Bilik», V.V.Radlovun əsərlərinə, türk dillərinə dair çoxsaylı sözlüklərlə müraciətlə ilk dəfə bu məsələnin dürüst həllini verən V.Zahidoğlunun açıqlamalarından bəlli olur ki, «Quru-quru çaylara suçu saldım»-əslində «Coşqun-coşqun (quduz-quduz, qəzəbli-qəzəbli) çaylara (çayların üstündən) körpü (keçid) saldım» deməkdir *(7, 37-42)*.

Deməli, Xan qızı da, Burla xatun da uşaqları olsun deyə gediş-gəliş üçün, savab olaraq, axar çaylar üstündən körpülər salmışlar.

KDQ-də digər uçarlarla yanaşı, qarğa-quzğundan da söz gedir. Və adları həmişə qoşa söylənilən bu quşlar bədniyabət sayılırlar. Bu da onların qana həris, leşə qonan olmaları ilə bağlıdır. İnam və etiqada, hətta qaynaqların bildirdiyinə görə, bu quşlar nə vaxt, harada döyüş-vuruş başlanacağını, qan tökülüb ölüm-itim olacağını öncədən duyur və uçuşub buraya tökülürlər *(5,12-13)*. Bu məsələ KDQ-də də eynən belədir. Lap elə birinci boyda oğlunu fəlakətə düçar olmuş zənn edən Xan qızı çevrəsindəki xanımlarla onu axtarmaq üçün Qazılıq dağına yollanırlar. Onlar dağın bir dərəsinə qarğa-quzğunun enib-qalxdığını görür və atlarını buraya səyirdirlər. Çünki bu xanımlara da bəllidir ki, qarğa-quzğunun bu yerə topalaşması xətadan qıraq deyil. Gəlib görürlər ki, Buğac dərədə al qanın içində yıxılıb qalıb, qarğa-quzğun da onun üstünə tökülüşməkdədir *(4, 42)*. Belə bir səhnə ilə eposun altıncı boyunda da üzləşirik. Selcanı Qanturalıya vermək məcburiyyətində qalan qızın atası – Trabuzan təkuru sonradan peşiman olur. O, öz adamlarını qızı geri qaytarmağa yollayır. Gələnlərlə vuruşa-vuruşa Qanturalı bir dərəyə enib görünməz olur. Bu zaman Qanturalın ata-anası gəlib buraya yetişirlər. Selcandan Qanturalını xəbər alırlar. O deyir: «Nə yerdə enir-qarışır toz varsa və nə yerdə qarğa-quzğun oynarsa» Qanturalı oradadır *(4, 84)*. Fikir verilirsə burada da hələ ölüm-itimdən söz getmir. Amma bir halda ki, döyüş-vuruş var, deməli, ölüm-itim də olacaq. Odur ki, qarğa-quzğun öncədən bunu hiss etmiş və uçuşub gəlmişlər.

Xan qızı da qarğa-quzğunun müharibə ölüm-itim simvolu olduğunu bildiyindən onların uçduğu yerə gəlməklə oğlunu yaralanmış görür.

Arxaik folklor janrı örnəklərinin, o sıradan alqış-qarğışların əski çağ inam, etiqadları ilə, xüsusən mifoloji dünyagörüşlə bağlılığı daha sıxdır. Və bu da danılmaz doğruluqdur ki, alqış-qarğış bilavasitə nitq forması olmaqla etiket qəliblidir. Bu barədə «Kitabi-Dədə Qorqud»da nitq etiketlərinin etnomifik poetikası» *(2007)* kitabımızda müfəssəl danışdığımızdan geniş çevrədə həmin məsələyə qayıtmağı gərəkli bilmirik. Bununla belə, söhbətimizin bilavasitə Xan qızına aidliyi səbəbindən məhz onunla bağlı qarğışlardan, müxtəsər də olsa, bir-iki söz söyləməyi zəruri sayırıq.

Oğuzlarda bir sıra nəsnələrin canlı bilinməsi barədə KDQ-də bilgilər az deyil. Bunu ən yaxşı halda Xan qızının qarğış məzmunlu dediklərindən və Buğacın ona verdiyi cavabdan öyrənirik.

Oğlunu qan içində görən Xan qızı bunu canlı saydığı Qazılıq dağından, bu dağın sularından, otlarından, qaçar-uçarlarından görür və belə qarğış söyləyir:

*Aqar sənin suların, Qazılıq dağı,*
*Aqar kibi, aqmaz olsun!*
*Bitər sənin otların, Qazılıq dağı,*
*Bitər ikən, bitməz olsun!*
*Qaçar sənin keyiklərin, Qazılıq dağı,*
*Qaçar ikən, qaçmaz olsun,daşa dönsün!*
*Nə biləyim, oğul, arslandanmı oldu,*
*Yoxsa qaplandanmı oldu? (4, 43).*

Ana qarğışının övladına təsir etmədiyini arxada bildirdik. Amma ananın digərlərinə söylədiyi qarğış həmişə xoflu, qorxulu olmuşdur. Abidənin dördüncü boyunda Burla xatun ovdan evə Uruzsuz dönən əri Qazan xana «yana-göynə» qarğış söyləyir. Bu qarğışdan Qazan xanı vahimə bürüyür. Xanımından qarğış söyləməməyi diləyir və Uruzu tapıb gətirəcəyinə söz verir.

Deməli, Xan qızının da sadalananlara qarşı qarğışının amansız olacağı şəksizdir. Əsl həqiqətdə isə bunlar günahsızdır. Odur ki, anasının qarğışını eşidən Buğac, halsız olsa da, zorla gözlərini açıb anasına deyir ki, Qazılıq dağının sularına, otlarına, keyiklərinə, arslanına, qaplanlarına qarğış söyləmə, onların günahı yoxdur. Bu işi edən atamdır.

Örnəkdəki, xüsusən suyun, dağın, daşadönmənin mifoloji məqamlarla bağlılığı çoxdur və biz bu barədə də geniş araşdırma aparmışıq *(1, 8-37)*. Həmin araşdırmada dediklərimizi Xan qızının soylamasındakılara da aid edir və təkrar təfsilat açmırıq.

Beləliklə, son olaraq bildiririk ki, Xan qızı adlandırdığımız Dirsə xanın xanımı ilə bağlı dediklərimiz onun həm də mifoloji görüşlərlə sıx əlaqədə olduğunu sübut edir.

### *QAYNAQLAR*


1. *Abdulla B. «Kitabi-Dədə Qorqud»un poetikası, – B., Elm, 1999.*
2. *Azərbaycan dilinin izahlı lüğəti, 4 cilddə. – B., Azərb. EA nəşr., 1962, I c.*
3. *Gökyay O.Ş. Dedem Korkudun kitabı. – İstanbul, 1973.*
4. *Kitabi Dədə Qorqud ensiklopediyası, 2 cilddə. – B., YNE, 2000, I c.*
5. *Сумарукова Г.В. Кто есть кто в «Слове о полку Игореве».– М., Изд-во Московского Университета, 1983.*
6. *Шахнович М.И. Приметы в свете науки.– Л.; Наука, 1969.*
7. *Zahidoğlu V. Dəli Domrul boyundakı quru çay ifadəsi haqqında// Tədqiqlər –1. AMEA Nəsimi adına Dilçilik İnstitutu.– B., Elm, 2000.*

*Araşdırma*

# BƏDİİ ƏDƏBİYYAT VƏ CƏMİYYƏTİN MƏNƏVİ SAĞLAMLIĞI

***Mənalı bədii kitab oxucunun yolgöstərəni, tərbiyəçisi, müəllimi, nəsihətçisidir***

İnsanın mənəvi aləminin formalaşmasında, estetik zövqünün tərbiyə edilməsində, yetkin şəxsiyyət kimi inkişafında bədii ədəbiyyatın – söz sənətinin əhəmiyyəti böyükdür. Cəmiyyətin mənəvi sağlamlığına, insanların mədəni mühitinə mühüm təsir göstərən bədii ədəbiyyat yeni cəmiyyət quruculuğunu əks etdirməklə yanaşı, həm də bu cəmiyyətin yaranmasında və inkişafında fəal iştirak edən mübariz vətənpərvəri yetişdirmək iqtidarındadır.

Müasir dövrdə sovet imperiyası caynağından xilas olaraq tam siyasi və iqtisadi müstəqillik yolu ilə inamla irəliləyən, təcavüzkar Ermənistanın işğalçılıq fəaliyyətinə qarşı qanlı mübarizə aparan, düşmən tapdağına çevrilmiş ərazilərini azad etməyə çalışan suveren Azərbaycan Respublikasında baş verən ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi hadisələr fonunda bütün bunlar daha aydın görünür.

İndiki dövrün özünəməxsus mürəkkəb hadisələr burulğanında, milli azadlıq ideyalarının həqiqətə çevrildiyi bir zamanda gənc nəsildə torpağa və xalqa məhəbbət, Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizəyə sədaqət, milli və hərbi vətənpərvərlik, qorxmazlıq, cəsarət, hünər, qəhrəmanlıq kimi hiss və duyğular aşılanmasında bütün tərbiyə, təhsil, mədəniyyət və informasiya müəssisələrinin üzərinə çox ciddi vəzifələr düşür. Bu təxirəsalınmaz və taleyüklü vəzifələrin həyata keçirilməsi üçün kitabxanalarımız da fəal mövqe tutmalı, oxucuların gündən-günə artan tələbatını vaxtında və dəqiq ödəməyə çalışmalıdır.

Kitabxanaçılarımız müxtəlif elm sahələrinə dair ədəbiyyatı təbliğ etməklə yanaşı, ən yaxşı bədii əsərlərin geniş yayılmasına da ayrıca diqqət yetirməli, onun incəliklərini və xüsusiyyətlərini dərindən bilməlidirlər. Onlar yadda saxlamalıdırlar ki, bədii əsərlər oxucuya təkcə zövq vermək üçün deyildir. Yaxşı bədii kitab həm də oxucunun yol göstərəni, tərbiyəçisi, müəllimi, nəsihətçisidir. Daha obrazlı desək, mənalı kitab müdrik və dünyagörmüş bir ağsaqqaldır.

Həyatı bədii obrazlar vasitəsi ilə əks etdirən söz sənəti – bədii ədəbiyyat incəsənətin başqa növlərindən söz sənəti olması ilə fərqlənir. Varlığı əks etdirmək, yenidən canlandırmaq üçün rəsmdə rənglərdən, musiqidə səslərdən, heykəltəraşlıqda mərmərdən, tuncdan, qranitdən və başqa materiallardan istifadə olunursa, bütün bunlardan fərqli olaraq ədəbiyyat sözdən yaranır.

Elmin də, bədii ədəbiyyatın da məqsədi həyatı öyrənmək, insan biliyini zənginləşdirməkdir. Bu cəhətdən bədii ədəbiyyatla müxtəlif elmlər arasında yaxınlıq və müştərəklik var. Lakin onlar həyatı başqa-başqa yollarla öyrənirlər. Elm faktik materiala, tarixi sənədlərə, rəqəmlərə, kainatın qanunauyğunluqlarına əsaslanır, ümumiləşmiş qənaətlər yaradır. Bədii ədəbiyyat da həyat materialına, tarixi sənədlərə əsaslanır, lakin o, məntiqi qavrama yolu ilə yox, həyatı surətlərin qarşılıqlı münasibətləri vasitəsilə ümumiləşdirir. Yazıçı alimdən fərqli olaraq daha çox təxəyyülə əsaslanır. Qələmə aldığı dövrün, mühitin ruhunu təhrif etməmək şərtilə bütün faktları öz niyyətinə uyğun şəkildə dəyişə bilir.

İnsanda dərin həyəcanlar oyadıb onu mütəəssir etmək bütün incəsənət növləri (rəssamlıq, heykəltəraşlıq, musiqi, memarlıq və s.) üçün ümumi cəhətdir. Rəsm əsərinə baxanda da, musiqi dinləyəndə də, bədii əsər oxuyanda da adam müxtəlif hisslər keçirir: onda xoş əhval-ruhiyyə yaranır, yaxud o, riqqətə gəlir və ya məyus olur, kədərlənir. İnsan ya qəzəblənir, yaxud onda mərhəmət oyanır, müəyyən bir fəaliyyət göstərməyə ruhlanır və s.

Bütün bu duyğu və hissləri bədii ədəbiyyat söz vasitəsilə yaradır ki, oxucu onu daha konkret, daha dərindən qavrayır, həm də müəllifin münasibətini görüb dərk edir. Buna görə də bədii ədə-

biyyat incəsənət növlərinə nisbətən daha geniş inikas imkanları olan bir sənət kimi qiymətləndirilir.

Fikrimizi aydınlaşdırmaq üçün respublikamızın ən gözəl guşələrindən biri olan Göy gölə aid rəsm əsəri ilə ona həsr edilmiş bir bədii əsəri – xalq şairi Səməd Vurğunun «Göy göl» şeirini müqayisə etsək, bədii əsərin Göy göllə bağlı daha geniş məlumat verdiyini aydın görərik.

Məşhur rus tənqidçisi V.Valinski bədii ədəbiyyatın üstünlüyü belə izah edir: «Ədəbiyyat azad insan sözləri ilə ifadə olunur ki, bu da həm səs, həm lövhə, həm də müəyyən, aydın ifadə olunmuş təsəvvürdür. Buna görə də ədəbiyyat başqa incəsənət növlərindən bütün ünsürlərinə malik olub ayrılıqda onların hər birinə aid olan bütün vasitələrdən birdən-birə və tamamilə istifadə etmiş olur.

«Ədəbiyyat» sözü «ədəb», «mərifət» sözündən götürülmüşdür və deməli, ədəbiyyatın birinci vəzifəsi insanı tərbiyə etməkdir. İnsanların başqalarına münasibətində, dünyagörüşünün inkişaf edib formalaşmasında, özünü dərk etməsində, müasir ruhda tərbiyə olunmasında bədii ədəbiyyat çox mühüm bir vasitədir.

Ədəbiyyat insanda güclü hisslər doğurur, onu heyran edir, həyata, fəaliyyətə səsləyir, xoş günlərə çağırır. Oxucu bədii əsərlərdən tanış olduğu obrazları, məsələn, Nizami Gəncəvinin Fərhadını, İsgəndərini, Şirinini, Fitnəsini; Məhəmməd Füzulinin Leylisini, Məcnununu; Mirzə Fətəli Axundovun Şahbaz bəyini, Kəmalüddövləsini, Yusif Sərracını; Cəfər Cabbarlının Sevilini, Almazını, Yaşarını, Aydınını; Səməd Vurğunun Vaqifini, Sarvanını, Humayını, Cəlalını; Süleyman Rəhimovun Mehmanını və başqalarını özü üçün ideal seçir, həyatda onun kimi olmağa çalışır. Belə qəhrəmanların daxili zənginliyini, sağlam düşüncəsini, müəyyən amal uğrunda mübarizliyini, başqalarına münasibətini əsas meyar hesab edən oxucu onları dərk etdikcə sevdiyi qəhrəmanda müsbət qəymətləndirdiyi xüsusiyyətləri özündə də görmək istəyir, öz nöqsanını hiss edir, onu aradan qaldırmağa çalışır, bir sözlə, xarakterini bu və ya başqa qəhrəmanın nümunəsində tərbiyə edir. Bədii ədəbiyyat oxucunu düşündürür, onun həssaslığını artırır, qəlbini incələşdirir, ona nəcib sifətlər aşılayır, daxili qüvvə verir, həyata səsləyir, ümumiyyətlə, onda yeni mənəvi keyfiyyətlərin yaranmasına səbəb olur.

Bədii ədəbiyyat cəmiyyət hadisələrini dərk etməkdə, obyektiv aləmin sərlərini öyrənməkdə, adamların mənəvi xüsusiyyətlərini, inkişaf və yüksəlişimizi qiymətləndirməkdə gənc nəslə yaxından kömək edir, onların həyat haqqındakı bilik və təsəvvürlərini genişləndirir və tamamlayır. Yeniyetmələr və gənclər yüksək bəşəri ideyalar təbliğ edən, oxucuda xoş arzular, nəcib əxlaqi sifətlər aşılayan yazıçıların əsərlərini böyük maraqla mütaliə edirlər. Belə əsərlərin bədii təsiri güclü olduğundan onlara təbliğ olunan fikirlər şagirdləri istənilən məqsədə asanlıqla istiqamətləndirə bilir, qəhrəmanları nümunə olacaq adamlar səviyyəsində gənc oxucunun qəlbində silinməz izlər buraxır.

Gənc nəsil arasında aparılan müşahidələr əsasında məlum olur ki, mənalı bədii əsərlər onların dünyagörüşünün formalaşmasında çox böyük təsir göstərir.

Ona görə də oxucuların gündəlik sorğularını ödəməklə məşğul olan hər bir kitabxanaçı öz fəaliyyətində bədii ədəbiyyatın təbliğinə xüsusi fikir verməli, yaşından asılı olmayaraq bütün oxucuların, xüsusilə gənc nəslin təlim-tərbiyəsində bədii əsəsrlərin mühüm yer tutduğunu, bu kitabların oxucuların şüuruna, davranışına, hərtərəfli inkişafına, ümumiyyətlə, şəxsiyyət kimi formalaşmasına və yetkinləşməsinə təsirini nəzərdə saxlamalıdır.

Müstəqil Azərbaycan Respublikasında yeni dövlət quruculuğunun indiki inkişaf mərhələsində gənc nəslin düzgün tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Bu məsələ təlim-tərbiyə ilə məşğul olan digər qurumlarla yanaşı, elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi kitabxanaların da həmişə diqqət mərkəzində olmalıdır. Əlbəttə, tərbiyənin əsası ailədə qoyulsa da, məktəb bu bünövrə üzərində ucalan gənc nəslin inkişafında və formalaşmasında mühüm rol oynayan təlim-tərbiyə ocağı olsa da, bu sahədə kitabxanaların da özünəməxsus imkanları var. Bu vacib problemlərin həllində ədəbiyyat və incəsənət əsərləri kitabxanaçıya zəngin material verir, geniş imkanlar açır, onun yaxın köməkçisinə çevrilir, milyonlarla adamın, xüsusilə gənc nəslin sağlam ruhda böyüməsində böyük tərbiyə mək-

təbi kimi xidmət göstərir.

Kitabxanaçılar ədəbiyyat təbliğatı zamanı belə bir cəhəti əsas götürürlər ki, ən yaxşı sənət əsərləri insana, onun həyat və mübarizəsinə, mənəvi aləmin dərinliklərində gizlənən hisslərin üzə çıxarılmasına və bunlardan istifadə olunmasına yardım göstərir. Gənc oxucular ən dəyərli və bəşəri ideyaları təbliğ edən əsərlərin köməyi ilə təbiət və cəmiyyət hadisələrini, insani keyfiyyətləri öyrənir, bu əsərlərdə təbliğ olunan nəcib fikirlərdən nümunə götürür, ədəbi bilik alır, bədii zövqə yiyələnirlər.

Bədii ədəbiyyatın təbliği zamanı gənc nəslin oxuduğu hər əsər bu vəzifələrin həyata keçirilməsində yardımçı olmalıdır:

1) gənclərin elmi dünyagörüşünün yaranmasına və genişlənməsinə kömək göstərməlidir;

2) gənclərdə əməyə məhəbbət hissləri tərbiyə etməli və onların əməksevər kimi yetkinləşməsinə kömək etməlidir;

3) gənc nəslin əxlaqi cəhətdən düzgün tərbiyələnməsinə kömək etməli, onları mənəvi aşınmalardan qorumalıdır;

4) gənclərdə vətənpərvərlik hiss və duyğularını gücləndirməli, eyni zamanda onlara beynəlmiləlçilik ruhu aşılamalıdır;

5) şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafına təsir göstərməli, ən nəcib insani keyfiyyətlərə yiyələnməyin yollarını göstərməlidir;

6) insanların şüurunda və hərəkətlərində kök salmış, köhnəlmiş, vaxtı keçmiş, zərərli meyllərin aradan qaldırılmasına kömək göstərməlidir;

7) gənclərdə yad və zərərli ideologiyaları ifşa etmək bacarığı formalaşdırmalıdır;

8) gənc nəslə sağlam bədii zövq aşılamalıdır.

Müasir dövrdə qarşıda duran ən vacib vəzifələrdən biri də oxucuların vətənpərvərlik ruhunda tərbiyə edilməsidir. Hazırda uşaq və gənclərin tərbiyəsinin tərkib hissələri olan vətənpərvərlik tərbiyəsi məsələsi ideologiyamızın və dövlətçiliyimizin mühüm və əhəmiyyətli sahələri kimi yüksək qiymətləndirilir və həmişə diqqət mərkəzində saxlanılır.

Bədii ədəbiyyatın təbliği zamanı müasir dövrdə vətənpərvərliyin yeni məzmun və məna kəsb etməsi dünyada baş verən hadisələrlə bağlı və vəhdətdə götürülməli, çağdaş proseslər diqqət mərkəzində saxlanılmalıdır.

Gənclərin vətənpərvərlik tərbiyəsində şifahi xalq ədəbiyyatı materiallarının təbliğinin əhəmiyyəti böyükdür. «Dədə Qorqud» və «Koroğlu» dastanlarının, bir sıra nağıllarımızın uşaqlar və gənclər arasında geniş təbliği onlarda qəhrəmanlıq, mübarizlik, yadelli işğalçılara qarşı nifrət, doğma vətənə məhəbbət hiss və duyğuları tərbiyə edir.

Gənc nəslin vətənpərvərlik tərbiyəsində klassiklərimizin bədii irsinin təbliği çox faydalıdır. Bu baxımdan, N.Gəncəvi, M.Füzuli, M.F.Axundov, A.Səhhət, M.Ə.Sabir, S.Vurğun və başqa ədiblərimizin əsərlərindəki vətəni tərənnüm edən motivlər diqqət mərkəzində olmalıdır. Məsələn, Abbas Səhhətin çox təbii və səmimi yazdığı «Vətən» şeiri bir sıra tədbirlərin leytmotivinə çevrilə bilər. Bu şeir indiki dövrdə iftixar və qürur ifadə edən intonasiya ilə daha gur səslənir:

*Könlümün sevgili məhbubu mənim*
*Vətənimdir, vətənimdir, vətənim...*
*...Anadır hər kişiyə öz vətəni,*
*Bəsləyib sinəsi üstündə onu...*

Məlumdur ki, xalqın vətənpərvərlik, yadelli işğalçılara qarşı qəzəb və nifrət hissləri müharibə illərində daha aydın şəkildə meydana çıxır. Bu mənada həm 1941-1945-ci illərin Böyük Vətən müharibəsi, həm də Dağlıq Qarabağ uğrunda 1988-ci ildən başlayan Vətən müharibəsi ədəbiyyatımıza yeni mövzular, yeni xarakterlər gətirmişdir.

Aparılan müşahidələr göstərir ki, gənclər müharibə mövzusunda yaranan bədii əsərlərə böyük maraq göstərir, onları həvəslə oxuyurlar. Bu mövzuda yazılan əsərlərin qəhrəmanları gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi üçün zəngin material verir, əlverişli imkan yaradır. Böyük Vətən müharibəsi mövzusunda yazılan əsərlər faşizmə qarşı ağır döyüş illərində xalqımızın arxa və ön cəbhələrdə kütləvi qəhrəmanlıq nümunələri göstərdiklərini öyrədir, azğın düşmənin vəhşilikləri haqqında konkret məlumat verir. Bu mövzuda yazılmış əsərlərin təbliği müqayisə aparmağa, nəticə çıxarmağa çox kömək edir. Gənclər öyrənirlər ki, bəşər tarixində öz istiqlaliyyəti, vətənin azadlığı uğrunda yadellilərə qarşı vuruşmaq halları az olmamışdır. Amma müxtəlif xalqların alman fa-

şizminə qarşı apardığı müharibə bunların hamısından fərqlənir. Bu müharibə adamları düşmənə qarşı mənəvi cəhətdən birləşdirməyin ən parlaq nümunəsi olmuşdur.

Adamların Böyük Vətən müharibəsi cəbhələrində göstərdikləri vətənpərvərlik nümunələri ruhunda gənc nəslin tərbiyə olunmasında ədəbi qəhrəmanların səciyyəsinə diqqət yetirmək çox faydalıdır. Müşahidələr göstərir ki, cəbhə qəhrəmanları – Mehdi Hüseynzadə («Uzaq sahillərdə», Həsən Seyidbəyli; İmran Qasımov), Hüseynbala Əliyev («Leninqrad göylərində», Məmməd Rahim), Həzi Aslanov («General», Hüseyn Abbaszadə), Qafur Məmmədov («Qafurun qəlbi», Süleyman Rüstəm) və başqaları gənclərə dərin təsir edir, onlara nümunə olur. Bu qəhrəmanlar möhkəm iradə, dözüm, vətənə məhəbbət, yüksək şüur və s. kimi sifətlər tərbiyə edir, böyük tərbiyəvi əhəmiyyətə və təsirə malik olurlar.

Oxuculara bədii əsərlərin tərbiyəvi əhəmiyyətini və təsir gücünü daha yaxşı başa salmaq üçün Böyük Vətən müharibəsi illərində yazıçıların ən yaxşı əsərlərinin oynadığı rol haqqında məlumat vermək çox səmərəli olur. Bu məqsədlə xalq şairi Səməd Vurğunun «Mənə belə söyləsələr» şeirini misal göstərmək, cəbhədə həlak olmuş bir döyüşçünün ölüm ayağında şairin məşhur «Azərbaycan» şeirindən:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam, doğma Vətənimsən,*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!–*

deyib gözlərini əbədi yumması kimi faktları yeri gəldikcə söyləmək çox təsirli olur, bədii ədəbiyyata həvəsi artırmaqla yanaşı, gənc oxucularda vətənpərvərlik hisslərinin formalaşmasına müsbət təsir göstərir.

*Bilsin ana torpaq, eşitsin vətən,*
*Müsəlləş əsgərəm mən də bu gündən!–*

deyərək Səməd Vurğunun müharibə illərində əsgər paltarı geyinib bir neçə qələm yoldaşı ilə birlikdə ön atəş xətlərinə getməsi, ordu hissələrində böyük siyasi-kütləvi təbliğat işi aparması, müharibənin ilk günündən qələmini silahla əvəz etməsi oxucularda ruh yüksəkliyi yaradır, həm şairin yaradıcılığına məhəbbət oyadır, həm də vətəndaşlıq duyğularını coşdurur.

Əlbəttə, müharibə mövzusunda yazılmış əsərlər təbliğ olunarkən 1990-cı ilin 20 Yanvar faciəsi, 1992-ci ildə baş vermiş Xocalı faciəsi, Şuşanın, Laçının, başqa rayonlarımızın işğalı ilə bağlı bədii nümunələrə də geniş yer verilməlidir. Lakin təəssüflə qeyd etməliyik ki, Qarabağ müharibəsindən uzun vaxt keçməsinə baxmayaraq, müharibə hələ bitməsə də, Qarabağ uğrunda aparılan savaşla, xalqımızın erməni-rus işğalçı ordusuna qarşı mübarizəsi ilə bağlı xeyli poetik əsərlər, irihəcmli əsərlər, o cümlədən romanlar, povestlər və s. çap olunmamışdır.

Səməd Vurğun vaxtilə yazırdı: «Xalqımızın rəngarəng zəhmət həyatı... onun yeni əxlaqi keyfiyyətləri, işıqlı fikirləri və hissləri, sevinci və kədəri, Vətən naminə yadelli işğalçılarla gərgin mübarizədə göstərdiyi qəhrəmanlığı və igidliyi Azərbaycan ədəbiyyatının keçən dövr ərzində yaratmış olduğu ən yaxşı əsərlərdə öz bədii əksini tapmışdır. Bizim nəslin sədaqət ruhunda, Vətənimizdəki xalqların qardaşlığı və xoşbəxtliyi ruhunda tərbiyə olunmasında ədəbiyyatımız həqiqətən böyük rol oynamışdır. Ədəbiyyatımız xalqımızın ictimai və şəxsi şüurunun yüksəldilməsi, xalqın estetik zövqünün zənginləşməsi işində böyük rol oynamışdır».

Böyük şairin dediyi kimi, həqiqi sənət əsərləri oxucuları yetkin şəxsiyyət kimi inkişaf etdirir, onların bədii zövqünün düzgün formalaşmasına müsbət təsir göstərir.

Ədəbiyyatşünas alim M.Cəfərovun qeyd etdiyi kimi, «həqiqi sənət əsərləri hər bir oxucunun ağıl və düşüncəsini inkişaf etdirib zənginləşdirir. Belə əsərlərin vasitəsilə ən gözəl insanı hisslər, duyğular və fikirlər başqalarına keçir, əhval-ruhiyyələri, psixologiyaları dəyişir. Bu əsərlər əgər tarixi əsərdirsə, həyatın mühüm suallarına cavab tapmağa edir».

Bu amillərlə bağlı müasir dövrdə bədii ədəbiyyatın düzgün və məqsədyönlü təbliği xüsusilə vacibdir.

***Knyaz ASLAN***
*pedaqoji elmlər namizədi, dosent*

# ЖИЗНЬ И МНОГООБРАЗИЕ АМЕРИКИ ОБЪЯСНЯЮТСЯ ПО ПУНКТАМ

Америка сильно меняется. Она становится старше и разнообразнее в расовом и этническом отношении.

Медианный возраст населения США составляет примерно 38 лет - по сравнению с 30 в 1980 году - и продолжит увеличиваться, поскольку большое поколение "демографического взрыва" приближается к пенсионному возрасту.

Общая численность населения возросла с 2000 по 2006 год примерно на 6 процентов и достигла 300 миллионов человек. Однако белое население, происхождение которого не связано с Латинской Америкой, увеличивалось за этот период гораздо медленнее (1,6 процента), тогда как латиноамериканцев стало больше на 26 процентов, выходцев из Азии - на 24 процента, а чернокожих - на 7 процентов.

Эти и другие цифры опубликовало 20 декабря Бюро переписей населения США в своей ежегодной "Статистической сводке о Соединенных Штатах". В этом сборнике данных о жизни Америки можно найти все - от участия американцев в добровольных работах (27 процента населения добровольно отрабатывают по часу в неделю) до того, сколько они платят за галлон неэтилированного бензина (2,59 доллара) и какие американские города наиболее популярны среди зарубежных туристов (с большим отрывом лидирует Нью-Йорк).

Содержащиеся в книге данные - 1366 таблиц из государственных и частных источников - показывают, что американские домохозяйства тратят значительно меньшую часть своих бюджетов на продукты питания, чем домохозяйства в большинстве других стран. При этом в Америке самая высокая в мире доля толстяков - почти треть взрослых американцев страдает ожирением.

Американцы потребляют меньше табака, чем японцы или европейцы. По сравнению с гражданами других стран американцы тратят на налоги малую часть своих заработков и чаще являются домовладельцами, но пользование американцев сотовыми телефонами меркнет по сравнению со многими странами Европы и Азии.

## ДОКАЗАТЕЛЬСТВО РАСТУЩЕГО МНОГООБРАЗИЯ

36 миллионов жителей США родились за границей. Большинство составляют выходцы из стран Центральной Америки, далее следует большая группа из Азии. Примерно у пятой части детей, которые учатся в начальных и средних школах, за рубежом родился хотя бы один из родителей. Такая же доля людей говорит дома не на английском, а на другом языке.

"Сводка" показывает влияние такого многообразия на политическую жизнь. Число выходцев из Латинской Америки, избранных на государственные должности, возросло примерно с 3000 в 1985 году до 5000 сегодня.

Эти должностные лица с латиноамериканскими корнями составляют 1 процент из полумиллиона выборных должностных лиц в Соединенных Штатах, сообщил Артуро Варгас из Национальной ассоциации выборных должностных лиц латиноамериканского происхождения. Он полагает, что эта доля будет быстро расти. По его словам, сегодня более половины должностных лиц родом из Латинской Америки приходится на долю Калифорнии и Техаса, в которых есть избирательные округа, где латиноамериканцы составляют большинство.

"Закон об избирательных правах принес свои результаты, - заявил Варгас, имея в виду закон 1965 года об увеличении регистрации избирателей из числа этнических меньшинств. - Районы с латиноамериканским большинством представляют выходцы из Латинской Америки".

По словам Варгаса, он рассчитывает на рост числа "переходящих кандидатов", способных побеждать в округах, где не живут латиноамериканцы. Мэр Лос-Анджелеса, выходец из Латинской Америки Антонио Вильяраигоса победил в городе, где половина населения говорит по-испански, но латиноамериканцы составляют лишь четверть избирателей. Латиноамериканские корни имеют три сенатора, принадлежащие к обеим политическим партиям, - демократ из Нью-Джерси Роберт Менендес, республиканец из Флориды Мел Мартинес и демократ из Колорадо Кен Саласар. Они победили в штатах, где избирателей-латиноамериканцев не так много, чтобы определить исход выборов.

### НЬЮ-ЙОРК НРАВИТСЯ ВСЕМ

"Сводка" также содержит несколько таблиц с данными, относящимися к отдыху и туризму. Одна из них показывает, что Нью-Йорк остается самым привлекательным американским городом для иностранных путешественников. Это единственный город из 10 наиболее популярных мест, в котором зарубежных гостей стало больше, чем в 2000 году - за год до терактов в США.

"После (11 сентября 2001 года) возник патриотический туризм, и в Нью-Йорк, который для всего мира служит "вторым домом", стало приезжать больше туристов со всего мира - людей, которые хотят поддержать город", - сообщил официальный представитель городской туристической организации "Нью-Йорк и компания" Кристофер Хейвуд. "Город притягивает туристов со всего мира", - сказал он.

В 2007 году Нью-Йорк начал за рубежом рекламную кампанию, адресованную, в частности, потенциальным гостям из Великобритании, Ирландии и Испании. "Зарубежные гости приезжают на более продолжительные сроки и тратят больше денег, - сказал Хейвуд. - На их долю приходится всего 17 процентов общего числа посетителей города, но они несут более половины всех расходов приезжих".

*(http://usinfo.state.gov/russki/)*

# SİQARET XƏSTƏLİYİ

**XXI əsrdə siqaret 1 milyard insanın ölümünə səbəb ola bilər**



Dünya Səhiyyə Təşkilatı (DST) dünyada ən çox siqaret çəkən ölkələrin siyahısını açıqlayıb.

Qurum hesabatında 20-ci əsrdə 100 milyon insanın tütün məmulatları ucbatından ölməsinə diqqət çəkərək, 21-ci əsrdə bu rəqəmin 1 milyarda çata biləcəyi barədə xəbərdarlıq edib. Türkiyə dünyada ən çox siqaret çəkənlər sırasında 10-cu yerdə qərarlaşıb.

DST-nin yayımladığı "Qlobal Tütün Yoluxması" adlı hesabatda ölkə rəhbərlikləri siqaretlə mübarizəyə çağırılır. Hesabatda dünyada tütün məhsullarından alınan verginin 200 milyarddan artıq olduğu, amma bu məbləğin yalnız 2 faizindən də azının tütünlə mübarizəyə xərcləndiyi bildirilir.

DST-nin baş direktoru Doktor Marqeret Çan "tütün yoluxmasının" səbəb olduğu ağciyər xərçəngi və ürək xəstəlikləri üzündən ildə 4,4 milyon nəfərin öldüyünü, 2030-cu ilə qədər bu rəqəmin ildə 8 milyona çatacağını söyləyib. Təşkilat siqaretlə mübarizədə ən effektiv yollardan birinin tütün məhsullarına qadağanın qoyulması, belə məhsul istehsal edən şirkətlərin sponsorluğuna icazə verilməməsi olduğunu, amma 179 ölkədən yalnız 20-də sadalanan addımların atıldığını açıqlayıb. Sənəddə bütün ölkələrə, xüsusilə gənclərin siqaretə qurşanmalarının qarşısını almaq, siqaret çəkənləri onu tərgitməyə təşviq etmək və siqaret çəkməyənlərin siqaret tüstüsünə məruz qalmalarını önləmək məsləhət görülür.

Siqaret "xəstə"lərinin üçdə ikisi adları çəkilən 10 ölkədə cəmləşib: Çin (siqaret çəkənlərin 30 faizi), Hindistan (siqaret çəkənlərin 10 faizi), İndoneziya, Rusiya, ABŞ, Yaponiya, Braziliya, Banqladeş, Almaniya və Türkiyə.

# ИЗ ИСТОРИИ ПРАВ ЧЕЛОВЕКА

***(От духовного устремления к признанному закону)***

Люди глубоко убеждены в том, что каждый человек обладает правами, в том числе правом не быть объектом угнетения и жесткого обращения и иметь право на свободу выбора.

Исторически большинство обществ предоставляло права лишь немногим счастливчикам. В 18-м веке в Европе возникло философское учение о "естественном праве", которое предполагало обеспечение таких прав для всех. Эта доктрина оказала огромное влияние на Американскую революцию 1776 года и на принципы, воплощенные в Конституции США - документе, которым руководствуются при составлении всех американских законов.

Во всех цивилизованных странах делаются попытки определить и закрепить права человека. Суть этой концепции везде одна и та же – человек обладает правами просто в силу того, что он человек. Они являются всеобщими и равными. Права человека также неотъемлемы. Их предоставление может приостанавливаться - обоснованно или необоснованно - в разное время и в разных условиях, но саму идею прав, с которыми человек рождается, отнять нельзя.

## ЭВОЛЮЦИЯ КОНЦЕПЦИИ

Традиционно все группы людей имеют представления о справедливости, честности, достоинстве и уважении. Однако идея о том, что все люди, просто потому, что они люди, имеют определенные неотъемлемые права, к которым они могут апеллировать, защищаясь от несправедливости общества и правителей, не была в ходу вплоть до 16-го века.

Раньше многие общества считали, что правители обязаны управлять мудро и на благо каждого, и что эта их обязанность вытекает из божественной заповеди или закреплена в традиции. Она не опиралась на концепцию прав человека, которыми обыкновенные люди могли бы оперировать, отстаивая справедливость.

Английский философ Джон Локк (1632-1704) разработал концепцию прав человека. Он писал, что люди образуют общества, а общества учреждают правительства, чтобы обеспечить пользование "естественными правами".

Локк определял управление как результат "общественного договора" между правителями и подданными. Граждане, считал он, обязаны быть верными лишь той власти, которая обеспечивает их права. Эти права могут даже главенствовать над притязаниями и интересами власти. Власть может быть легитимной лишь тогда, когда она последовательно соблюдает и защищает права своих граждан.

Однако у теории Локка были свои ограничения. Он не учитывал притязания всех людей на свои права, хотя изъяснялся в своих трудах всеобщими категориями. Фактически он имел в виду защиту прав европейского мужчины, который обладал собственностью. Женщины, слуги, наемные рабочие, представители коренного населения не признавались полноценными обладателями прав. Тем не менее, идеи Локка и его современников оказались поистине революционными.

## РАСШИРЕНИЕ ПРАВ

Многие политические битвы последних двух столетий велись вокруг расширения сферы охраняемых прав. В частности, речь шла о предоставлении избирательного права всем гражданам, разрешении трудящимся добиваться повышения заработной платы и улучшения условий труда, отмене дискриминации по расовому и половому признаку.

Во всех этих ситуациях обездоленные группы говорили об ограничении их свободы, требуя юридического признания основополагающих прав, которых они были лишены. В каждом случае суть приводимых доводов заключалась в том, что "мы" - люди не в меньшей степени, чем "вы". Будучи людьми, все мы можем претендовать на одинаковые права, а также на равную заботу и ува-

жение со стороны государства. Признание таких доводов привело к радикальным социальным и политическим изменениям во всем мире.

По всему миру режимы, которые не предоставляют своим гражданам основных прав человека, не в состоянии обеспечить себе долгосрочную стабильность. Важной причиной распада Советского Союза было растущее нежелание граждан стран коммунистического блока мириться с тем, что их правительства систематически отказывали в предоставлении им международно признанных прав человека. В Южной Америке и Центральной Америке на протяжении 1980-х годов рушились репрессивные военные правительства. В Азии и Африке процессы либерализации и демократизации развивались не столь равномерно, но были совершенно реальными. Два ярчайших примера прогресса в области прав человека – это Южная Корея и ЮАР.

Урок недавнего прошлого заключается в том, что всюду, где людям дается возможность выбора, они выбирают международно признанные права человека. Мы живем в мире, в котором, при всех его недостатках, все меньше правительств осмеливается лишать своих граждан этого свободного выбора.

## КАК ПРАВА ЧЕЛОВЕКА СТАЛИ МЕЖДУНАРОДНОЙ ПРОБЛЕМОЙ

***(Эволюция международных норма в области прав человека)***

Сегодня почти все развитые и развивающиеся страны мира провозглашают свою приверженность правам человека. Однако так было не всегда.

Развитие ситуации в области прав человека - или его отсутствие – стало одной из постоянных тем в международных отношениях в течение последних пятидесяти лет. В период накануне Второй мировой войны считалось, что обращение правительства со своими гражданами на своей территории является его суверенным правом, то есть правительство обладает высшими полномочиями в управлении своими внутренними делами.

### ПОТРЯСЕНИЕ ХОЛОКОСТА

В годы Холокоста во время Второй мировой войны нацисты планомерно уничтожили миллионы европейских евреев. Неприятие этой жестокости во всем мире привело к глубоким интеллектуальным переменам. Права человека стали неотъемлемой частью международных отношений.

В 1945 году на Нюрнбергском процессе высокопоставленные нацисты были привлечены к ответственности за свои военные преступления, и появилась концепция "преступлений против человечности". Впервые должностные лица были привлечены к юридической ответственности перед международным сообществом за преступления против отдельных граждан. Однако в действительности права человека стали предметом международных отношений уже в рамках ООН.

Права человека занимают видное место в Уставе ООН, принятом в 1945 году. 10 декабря 1948 года Генеральная Ассамблея ООН приняла Всеобщую декларацию прав человека. Этот всеобъемлющий перечень прав провозглашал, что обращение государств со своими гражданами является вопросом, вызывающим законную международную озабоченность, и должно регулироваться международными нормами.

### ВЛИЯНИЕ ХОЛОДНОЙ ВОЙНЫ

После Второй мировой войны развернулась жесткая идеологическая борьба между коммунистическими и капиталистическими странами. Холодная война продолжалась до распада Советского Союза в 1991 году.

Немногие государства были готовы разрешить даже многосторонний контроль положения с правами человека в их странах, не говоря уже о внедрении или обязательном исполнении международных норм.

К середине 1960-х годов крупнейшей группой в ООН стал блок стран Африки и Азии. Эти страны, которые испытали на себе гнет колониального правления, были особенно заинтересованы в правах человека. К ним сочувственно отнеслись в советском блоке и в Европе, Северной и Южной Америке, включая Соединенные Штаты. Таким образом, ООН вновь начала заниматься вопросами прав человека.

Наиболее значимым результатом стало заключение Международных пактов о правах человека в декабре 1966 года. Наряду с Всеобщей декларацией эти договоры содержат авторитетное изложение признанных во всем мире прав человека.

Хотя основные концепции норм в области прав человека оформились к середине 1960-х годов, реализация этих норм почти полностью зависела

от воли правительств отдельных стран.

В 1977 году, когда президентом США стал Джимми Картер, он сделал права человека приоритетным направлением американской внешней политики. Картер пытался отделить международные права человека от политических отношений между Западом и Востоком в годы холодной войны, а также от экономических разногласий между промышленно развитыми странами Севера и неразвитыми странами Юга. Это придало новый импульс и повышенную легитимность правозащитникам по всему миру.

## ХЕЛЬСИНКСКИЙ ПРОЦЕСС

В середине 1970-х годов права человека также вошли в основное русло многосторонней и двусторонней внешней политики. А Заключительный акт Хельсинки 1975 года в явном виде ввел права человека в основное русло американо-советских отношений.

В начале 1970-х приступила к работе Конференция по безопасности и сотрудничеству в Европе (КБСЕ). Она представляет собой серию переговоров с участием США, Канады, Советского Союза и почти всех стран Европы. Основное внимание на переговорах уделялось решению вопросов между коммунистическим Востоком и демократическим Западом. Заключительный акт КБСЕ, достигнутый в 1975 году в столице Финляндии Хельсинки и подписанный 35 странами, стал известен под названием "Хельсинкские соглашения". В этих соглашениях были изложены 10 конкретных принципов, в том числе соблюдение прав человека и основополагающих свобод - таких, как свобода мысли, совести, религии и вероисповедания.

С окончанием холодной войны КБСЕ взяла на себя более важную роль - управление историческими переменами, происходящими в Европе. Она стала называться Организацией по безопасности и сотрудничеству в Европе (ОБСЕ). Теперь она является крупнейшей в мире региональной организацией по вопросам безопасности, в которую входят 56 стран Европы, Центральной Азии и Северной Америки. Копенгагенская декларация и Парижские принципы ОБСЕ стали чрезвычайно влиятельными при оценке того, в какой мере соблюдаются права человека.

В рамках ООН возрожденная Комиссия по правам человека сформулировала новые договоры о правах женщин (1979), запрещении пыток (1984) и правах ребенка (1989). Назначались эксперты для проведения исследований и подготовки докладов о нарушениях прав человека в растущем числе стран.

В 1970-е годы неправительственные организации, занимающиеся правами человека, стали международной политической силой. Эти группы не только отстаивали интересы жертв нарушений прав человека, но и оказывали важное влияние на национальную и международную политику в области прав человека.

## ОБСТАНОВКА ПОСЛЕ ХОЛОДНОЙ ВОЙНЫ

По окончании холодной войны активизировались международные усилия по защите прав человека. Например, учреждение должности Верховного комиссара ООН по правам человека усилило международный контроль.

Хотя по-прежнему сохраняются режимы (например, Куба, Бирма, Северная Корея), которые систематически нарушают международно-признанные права человека, в международном сообществе возникла новая готовность противодействовать систематическим нарушениям прав человека.

Например, в Сомали, когда страна погрузилась во внутренние распри, вмешательство международных вооруженных сил спасло от голода тысячи граждан. В Боснии международное сообщество помогло прекратить кровопролитную гражданскую войну, в результате которой погибло примерно 200 000 человек, а еще два миллиона стали вынужденными переселенцами вследствие систематических "этнических чисток".

## ЗАРОЖДЕНИЕ И РАЗВИТИЕ КОНЦЕПЦИИ ПРАВ ЧЕЛОВЕКА В США

***(Как складывались в Соединенных Штатах стандарты в области прав человека)***

Соединенные Штаты сыграли особую роль в развитии и поддержке идей прав человека и механизмов их обеспечения. Декларация независимости, по которой американские колонии в 1776

году вышли из состава Британской империи, гласила, что "все люди созданы равными". Что не менее важно, декларация утверждала право людей на расторжение политических уз, которые стали гнетущими.

Благодаря Конституции США и Биллю о правах (первым 10 поправкам к Конституции) мир стал свидетелем первого в истории эксперимента в создании правительства, о котором судят по тому, в какой степени оно соблюдает и защищает права своих граждан. Поначалу американцы не говорили о "правах человека" как таковых, а выступали за свободу и вольности. Многие из первых колонистов приехали в Новый Свет, стремясь к свободе вероисповедания, которой они были лишены в Европе 17-го века. Создавая свои общины, они постепенно формировали чувство религиозной толерантности, а также стремление к самоуправлению.

Когда американские колонистам почувствовали, что настало время отделить от британской короны, у них уже были законы и обычаи, в рамках которых признавались свобода слова, свобода вероисповедания и свобода собраний. Они также дорожили другими правами - обращаться к правительству с ходатайствами, пользоваться судом присяжных и влиять на управление своими делами.

## БИЛЛЬ О ПРАВАХ

Сначала у новой Конституции было много противников. Они согласились с этим документом лишь после того, как было обещано, что в него будет добавлен ряд поправок, гарантирующих гражданские свободы, которые уже предусматривались конституциями большинства штатов.

Первые 10 поправок, которые, взятые вместе, составляют Билль о правах, были добавлены в Конституцию в 1791 году и гарантировали, среди прочих свобод, свободу вероисповедания, свободу слова, свободу печати, право людей на мирные собрания, право людей обращаться в правительство с ходатайствами о возмещении ущерба, право людей не подвергаться необоснованным обыскам и конфискациям, а также право на надлежащие судебные процедуры, быстрое и публичное рассмотрение их дел беспристрастным судом присяжных.

С момента принятия Билля о правах в Конституцию США было внесено всего 17 дополнительных поправок.

## ЭВОЛЮЦИЯ И РАСШИРЕНИЕ ПРАВ ЧЕЛОВЕКА

Несмотря на принятие Конституции США и Билля о правах, еще много лет продолжались рабство и дискриминация американских индейцев, женщин и других групп. Но одна из особенностей американской демократии заключается в том, что самокорректирующиеся механизмы, подобные выборам и судам, обычно исправляют ошибки прежних эпох. Простая сила идеи равенства тоже помогает исцелять общественные недуги.

Соединенные Штаты также издавна осуществляют позитивные международные действия во имя прав человека. После Первой мировой войны президент США Вудро Вильсон выступал за национальное самоопределение и защиту меньшинств международным сообществом. После Второй мировой войны Соединенные Штаты потратили немало сил и средств на сохранение и восстановление демократии в Европе и на развитие демократии в Японии. Соединенные Штаты сыграли ведущую роль в деколонизации, предоставив в 1946 году независимость Филиппинам. А с окончанием холодной войны Соединенные Штаты стали лидером в области международных правозащитных и гуманитарных инициатив в Сомали, Судане, Гаити, Боснии и других странах.

## ЕЖЕГОДНЫЕ ДОКЛАДЫ ПО ВОПРОСАМ ПРАВ ЧЕЛОВЕКА

Государственный департамент США по закону обязан ежегодно представлять Конгрессу несколько всеобъемлющих докладов о правах человека. К ним относятся:

доклады о положении с правами человека в странах мира, где дается детальная оценка ситуации с правами человека в различных странах по всему миру;

поддержка прав человека и демократии - материалы о действиях правительства США по устранению нарушений, отмеченных в докладах по странам;

доклад о свободе вероисповедания в странах мира, где анализируется, в какой степени люди могут свободно совершать религиозные обряды;

доклад о торговле людьми, где исследуются проблемы современного рабства.

*(Распространено Бюро международных информационных программ Государственного департамента США. Веб-сайт: http://usinfo.state.gov/russki/)*

# Uşaq dünyası

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi



# MƏRDLİK SALNAMƏSİ

## 20 Yanvar təkcə matəm günü deyil, həm də fədakar övladlarımızın qəhrəmanlıq günüdür

Yanvarın 18-də "Dünya" məktəbində müəllim, şagird və digər işçilərimizin simalarında qəribə bir hüzn duyulurdu. Məktəbin foyesində şəhidlərin ruhunu yad etmək məqsədilə yaradılan xatirə lövhəsi, Dövlət Himninin səslənməsindən sonra o günlərin canlı şahidi Bəhlul müəllimin söhbəti, şəhidlərin ruhuna verilən fatihə surəsi, günün ikinci yarısında təşkil olunmuş tədbir və s. əsrlər boyu xalqımızın başına açılan ən dəhşətli repressiyalardan birini yenidən gözümüzün qarşısında canlandırdı.

Amma mənə elə gəlir ki, hər il məhz bu ərəfədə həmin faciəni xatırlamaq yetərli deyil. Axı şəhidlərimizin ruhu daim ətrafımızdadır. Bu günün dəhşətləri qanımıza, iliyimizə elə yeriməlidir ki, axan qanımızdan, nəfəsimizdən, nitqimizdən, beynimizdən hər an vətənpərvəlik duyulsun. Həm də bu günü təkcə matəm günü kimi deyil, canlarını Vətən uğrunda fəda etmiş insanlarımızın qəhrəmanlıq günü kimi qeyd etməliyik. Bəlkə də çoxları şəhidlərimizin hansı şəraitdə canlarından keçdiklərini bilmir. Bilmirəm hansını yazım?! Sinəsini tankların qabağına verib "ne strelyayte, lyudi bez orujiy" deyə qışqıranlarımı, təcili yardımda yaralı daşıyan tibb işçilərinimi, rezin dəyənək zərbələrinə tab gətirməyənlərimi, insanların köməyinə gələn polis işçilərinimi, qəzet köşkündə gülləyə tuş gələn satıcınımı, professorlarımızımı, şagirdlərimi, tələbələrimi, nəvəsini güllə altından xilas edən babanımı, həyatını, canını İlhamına qurban verən Fərizənimi, daha kimləri, kimləri deyim?!

Hər il məktəbimizdə yada salırıq, xatırlayırıq bu günü və hər tədbirimizdə şagirdlərimiz daha nələrisə eşidir, bilir. Məktəblilərimiz həmin günün şahidləri ilə görüşdü. Tarix müəllimimiz Arif müəllim, məktəbimizin direktor müavini Çiçək xanım bu tədbirin Dünya Azərbaycanlıları Kongresi ilə birgə keçirilməsinə böyük təşəbbüs göstərdilər.



Tədbiri Arif müəllim açandan sonra IX sinif şagirdi Sevinc R. 20 Yanvar haqqında düşüncələrini ifadə etdi.

Dünya Azərbaycanlıları Konqresinin sədri, Edinburq Universitetinin və Bakı Dövlət Universitetinin professoru Qulamrza Səbri Təbriziyə söz verildi. Əslən Cənubi Azərbaycandan olan və vətəni uğrunda atdığı addımlarla hamının rəğbətini qazanmış Səbri bəyin çıxışı şagirdlərimiz tərəfindən maraqla qarşılandı. O, 20 Yanvar günü Arazın o tayındakı azərbaycanlıların keçirdiyi hisslərdən, içlərinin yandığı həmin günü matəm içində yaşadıqlarından danışdı.

Daha sonra DAK-ın Kordinasiya Mərkəzinin rəhbəri Əlirza Amanbəyli, Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri Səlahəddin Dikmən, 20 Yanvar hadisələrinin şahidləri və iştirakçıları Əlövsət Əmirbəyli, "Dünya" məktəbinin müəllimi, professor Bəhlul Abdulla, Xəzər Univerisitetinin rektoru Hamlet İsaxanlı çıxış etdilər, şagirdlərimizin suallarına cavab verdilər.

Tədbirdə Türkiyənin Azərbaycandakı səfirinin xanımı da iştirak edirdi.

Şagirdlərimiz böyük maraqla, bəzən danışılan söhbətlərin təsirindən kədərlə dinlədilər şahidlərimizi. "Dünya" məktəbi bu günü təkcə matəm ab-havası ilə keçirmədi. Vətənpərvərlik hissini, millətimizlə, dövlətimizlə, vətənin qəhrəman övladları ilə qürur, fəxr hisslərinin daha da artmasına çalışdı.

Torpaq, vətən, millət uğrunda canından keçmək, ən uca zirvəyə – Şəhidlik zirvəsinə yüksəlmək nə müqəddəs bir ölüm!

Dünyaya cənnəti qazanmaq adına gəlirik. Hər bəndəyə nəsib olmayan cənnəti şəhidlərimiz qazandılar.

Əziz şagirdlərimiz, şəhidlərimizin uyuduğu Xiyabanı təkcə 20 Yanvar günü deyil, tez-tez ziyarət edin. Savab işlər görmək, xeyirxah əməllər sahibi olmaq, istəyiriksə, cəmiyyətimizə, valideynlərimizə, vətənimizə, dövlətimizə layiqli insan olmalıyıq! Övladı Vətən uğrunda canından keçən azadlıq carçısı Xəlil Rza Ulutürkün misraları hamımıza görk olsun:

**Tutaq ki, var istedadın,**
**İlhamın da.**
**Biliyin də.**
**Rədd ol! İtil gözlərimdən**
**Əgər yoxsa Vətən eşqi**
**Sümüyündə-iliyində!**

*Nərmin Məmmədova,*
*"Dünya" məktəbinin*
*Azərbaycan dili müəllimi*

# Vətəni sevməyən insan olmaz

***Hər il olduğu kimi bu il də "Dünya" məktəbinin şagirdləri qanlı 20 Yanvar faciəsini anım günü kimi qeyd etdilər***

*Onlardan bir neçəsinə bu məzmunda sualla müraciət etdim:*

– *Vətəni sevirsənmi?*

– *Əlbəttə!*

– *Vətən üçün ölərsənmi?*

– *Mən ölsəm Vətəni kim qoruyar?!...*

*Aldığım cavablara çox sevindim. Şagirdlərin bu fikrə münasibətləri məndə fərəh, qürur hissi yaratdı. Gələcəyimizin etibarlı əllərdə olduğuna sevindim...*

**Ülviyyə Məcnunova, IX sinif şagirdi:**

– Vətən üçün hər zaman ölümə hazıram... Çünki mən ölsəm də bu Vətəni qoruyan olar. Bu Vətən minlərlə mənim kimi övlad yetişdirib. Hamısı da öz borcunu mütləq yerinə yetirməlidir. Ancaq mənim ölməyimlə Vətən çox şey itirməz, əsas odur ki, Vətənim yaşasın... Mən olmək üçün yaşamıram, yaşatmaq üçün yaşayıram. Ömrümün yetdiyi qədər bu Vətəni, dilimi, dinimi, mənəviyyatımı hər zaman yaşadacam! Mənim fikrimcə, indi Vətən üçün yaşamaq lazımdı. Yaşamaq və bu torpağı yaşatmaq!!!

**Novruz Cavadov, IX sinif şagirdi:**

– Hər insan belə desə onda Vətəni heç qoruyan olmayacaq ki... Vətəni qoruyan ölümə də hazır olmalıdır. Vətən üçün öləndə özünlə ən azı bir düşmən aparsan lap yaxşı olar...

**Elşən Əlizadə, IX sinif şagirdi:**

– Bu fikrə münasibətim həm yaxşı, həm də pisdi. Yaxşı tərəfi odur ki, vətəni sevir, amma mənfi cəhəti... Necə ola bilər ki, vətəni sevəsən, ancaq vətən üçün olməyəsən?! "Vətəni sevirəm" deyən insan vətəni üçün ölməyi də düşünməlidir.

**Sevinc Vəlibəyli, IX sinif şagirdi:**

– Vətəni, əlbəttə, sevmək lazımdır. Sevirəm də. Vətən üçün ölmək? Riskli məsələdi. Bəlkə də ölərəm...

**Elvin Səfərov, IX sinif şagirdi:**

– Hər bir kəs vətəni sevməlidir. Mən bu suala "bəli" cavabı verərdim. Vətən üçün hər kəs öz doğma canından keçməlidir, həmçinin də mən. "Mən ölsəm vətəni kim qoruyar" səhv fikirdir. Mən Vətən üçün hər zaman, hər an canımdan keçməyə hazıram. Hər bir şəxs vətən üçün nə isə etməlidir...

**Nərmin Əliyeva, IX sinif şagirdi:**

– Bir tərəfdən bu fikir doğrudur. Amma bu fikrə başqa bir nöqteyi-nəzərdən baxsaq yanlışdır. Əgər müəyyən bir anda vətənin üçün ölmək tələb olunursa, bunu etməlisən. Məsələn, 20 Yanvar günü gözünü qırpmadan yüzlərlə insan özünü qurban verdi. Niyə? Vətən, torpaq uğrunda!!! Bu vətənin azadlığı uğrunda!!! Onlar şəhid olmuşlar, ölməmişlər. Şəhidlərimiz indi də yaşayır. Göylərdən bizi izləyir, tökülmüş qanlarının yerdən silinəcəyi anı gözləyirlər. Əgər bir gün "Vətənim uğrunda ölərsənmi" sualını mənə versələr, cavabsız qoyaram...

**Niftalı Qasımlı, IX sinif şagirdi:**

*Vətəni sevməyən insan olmaz,*

*Olsa da o şəxsdə vicdan olmaz.*

Əlbəttə, Vətən üçün ölərəm! Bəlkə bu cavaba çox adam inanmaz, amma mənim fikrim səmimidir. Ölümümlə Vətənim və Allahin qarşısında ucalaram...

**Sevinc Rzayeva, IX sinif şagirdi:**

– Bəzi insanlar ancaq gözdən pərdə asmaq üçün "vətən üçün ölümə belə hazıram" sözlərini işlədirlər. Amma əgər bu torpaqların nemətini, malını mənimsəyiriksə onu sevməliyik. "Vətən üçün ölərsənmi" sualına verilən cavab isə məncə düzdür. Daha doğrusu, əgər bu sözləri vətəni həqiqətən də sevən deyirsə... "Ölsəm vətəni kim qoruyar" sualı daha doğru olar. Nə olsun ki, bu günə kimi bu qədər şəhid vermişik. Torpaqlarımızı ala bilmişikmi? Xeyr, ona görə vətən uğrunda ölmək hər şeyi həll etmir.

**Nigar Eyvazova, VII sinif şagirdi:**

– Mənim fikrimcə, Vətən ugrunda şəhid olmaq böyük qürurdur. Mən də təki Vətənim yaşasin deyə, Vətənçün ölərəm.

**Davud Axundzadə, VIII sinif şagirdi:**

– Vətənin var olması üçün hər şey edərəm. Təki Vətən sag olsun! Vətən ugrunda ölsəm də, bilirəm ki, məndən sonra da Vətəni sevən ogullar var. Ona görə də Vətən yolunda, torpaq ugrunda şəhid olmaga dəyər!!!

*Materialı hazırladı:*
***Mədinə Rzayeva***

# VƏTƏN BAYATILARI

Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir qərib ölüb,
Göy kişnər, bulud ağlar.

Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Dibindən eli köçmüş,
Başında bulud ağlar.

Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Mən vətənsiz qalmışam,
Bu yara qəlbim dağlar.

Əziziyəm, dilən gəz,
Bağda gülü dilən gəz.
Qürbətdə xan olunca,
Vətənində dilən gəz.

Əzizim, qazan ağlar,
Od yanar, qazan ağlar.
Qəriblikdə ölənin
Qəbrini qazan ağlar.

Qardaş, qardaş, ay qardaş,
Qaşın ucu yay qardaş.
Kaş ki bacın öləydi,
Deməyəydi vay qardaş.

Çay batıb, çaylaq qalıb,
Ceyransız oylaq qalıb.
Dağlar qəm libasında,
El köçüb, yaylaq qalıb.

Şamama qopub tağdan,
Alma düşüb budaqdan.
Ey gözümün işığı,
Məni qurtar bu dağdan.

Eləmi dağlar çəkər,
Dumanı dağlar çəkər.
Şəhid bala dağını
Analar ağlar, çəkər.

Eləmi Vətən yeri,
Yurd yeri, Vətən yeri.
Haraylayıb gəzirəm
Bülbüllər ötən yeri.

Əzizim qala dərdi,
Yurd dərdi, qala dərdi.
Elim xoş günlər görə,
Düşmənə qala dərdi.

Yuvadan uçan ağlar,
Vətəndən qaçan ağlar.
Dərdlilərin içində
Obadan köçən ağlar.

KHAZAR VIEW

# XƏZƏR XƏBƏR

*Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən*
*"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.*
*"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,*
*türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,*
*ali və orta təhsil haqqında yeniliklər,*
*poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,*
*elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə*
*sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -*
*müsabiqələr və s. könlünüzcə olacaq.*
*"Xəzər Xəbər" gənclərin və oxuyan,*
*düşünən hər kəsin dərgisidir.*
*"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın*
*hər yerində oxuyurlar.*
*"Xəzər Xəbər"i siz də oxuyun!*
*"Xəzər Xəbər"ə siz də yazın!*
*"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal*
*köşklərindən ala bilərsiniz.*
*"Xəzər Xəbər" ayda iki dəfə çıxır.*

***Ünvan: Bakı şəhəri,***
***Məhsəti küçəsi, 11.***
***Əlaqə telefonları: 421-79-16***
***421-10-93.***
***E-mail: xazarxabar@khazar.org***